# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

07 fevral 2026-cı il, şənbə
№ 024 (7091)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!




# Sonuncu mismar!

## Erməni separatçılarının tabutu belə qapandı...

## O, sadəcə bülleten deyildi...

## Azərbaycan Rusiyaya nota verib

Bax səh. 2

### Bakı yeni nizamı əməkdaşlıq, qarşılıqlı fayda və iqtisadi inteqrasiya üzərində qurur

Bax səh. 2

### Ölkəmiz Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırır

Bax səh. 5

### START 4 imzalanacaqmı?

Bax səh. 7



### Vaşinqtondan mesaj: Azərbaycanla işləməyi səbirsizliklə gözləyirik!

Bax səh. 4

### Azərbaycan gərginliyin aradan qaldırılması üçün öz dəstəyini göstərməyə hazırdır

Bax səh. 2

### 5 aydan sonra...
Əbu-Dabi görüşünün real nəticəsi: 314 əsir vətəninə qayıtdı

Bax səh. 6

### Fransanın müstəmləkə siyasəti davam edir

Bax səh. 7

# Azərbaycan gərginliyin aradan qaldırılması üçün öz dəstəyini göstərməyə hazırdır

## İlham Əliyev: Biz istəyirik ki, bütün dünyada sülh olsun, qan tökülməsin, müharibələr olmasın

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Əziz Nəsirzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bir neçə gün əvvəl İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla telefon danışığını xatırladaraq, yüksək səviyyələrdə müxtəlif təmasların ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Məsud Pezeşkianın ötən il Azərbaycana rəsmi səfərinin uğurlu keçdiyini və yaxşı nəticələrin əldə olunduğunu vurğulayan Prezident İlham Əliyev bu səfərdən sonra əlaqələrimizin inkişaf etdiyini bildirdi.



Dövlətimizin başçısı hazırda dünyanın bir çox yerində müharibə və münaqişələrin davam etdiyini vurğulayaraq, Azərbaycanın təşəbbüsü ilə Cənubi Qafqazda artıq sülhün bərqərar olduğunu dedi, bunun həm Azərbaycan, həm də Ermənistanla həmsərhəd olan İran üçün böyük əhəmiyyət daşıdığına əminliyini bildirdi. “Biz istəyirik ki, bütün dünyada sülh olsun, qan tökülməsin, müharibələr olmasın” deyən Azərbaycan Prezidenti ölkəmizin timsalında müharibədən sülhə keçid modelinin nümayiş olunduğunu vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, İran Prezidenti ilə telefon danışığı zamanı qeyd etdiyi kimi, Azərbaycan bölgədə yaranmış vəziyyətdən narahatdır və bu gərginliyin aradan qaldırılması üçün öz dəstəyini göstərməyə hazırdır.

Qəbula görə minnətdarlığını bildirən Əziz Nəsirzadə ilk növbədə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkəmizə İranın dövlət başçısının göstərişi ilə səfərə gəldiyini deyən qonaq Məsud Pezeşkianın Azərbaycana böyük təssübkeşlik nümayiş etdirdiyini vurğuladı. O, həmçinin qeyd etdi ki, İran Prezidenti ölkəmizə, o cümlədən Xankəndiyə səfərlərini böyük məmnunluq hissi ilə xatırlayır.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq və mehriban qonşuluq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərimizin inkişafı qeyd olundu, müdafiə sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Bakı yeni nizamı əməkdaşlıq, qarşılıqlı fayda və iqtisadi inteqrasiya üzərində qurur

## Prezident İlham Əliyev: Altı ay ərzində biz əməkdaşlığa başlamışıq...

Postmüharibə dövründə Azərbaycanın əsas məqsədlərindən biri regionu qlobal iqtisadi-ticari marşrutların mühüm həlqəsinə çevirmək, eyni zamanda qonşu dövlətlər arasında münasibətləri normal qonşuluq və qarşılıqlı maraqlar müstəvisinə çıxarmaqdır. Bu kontekstdə Bakının atdığı addımlar xüsusi diqqət çəkir. Ermənistanla münasibətlərin mərhələli şəkildə normallaşdırılması istiqamətində irəli sürülən təşəbbüslər Azərbaycanın konstruktiv və məsuliyyətli aktor olduğunu bir daha təsdiqləyir. Artıq Cənubi Qafqaz yeni inkişaf dövrünə qədəm qoyur və Ermənistanın da bu prosesə qoşulması regionun ümumi rifahı baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanın Ermənistan üzərindən tətbiq etdiyi iqtisadi məhdudiyyətləri mərhələli şəkildə aradan qaldırması, ötən ilin oktyabrında taxıl ixracının Azərbaycan ərazisi vasitəsilə həyata keçirilməsi mühüm siyasi və iqtisadi mesaj idi: Bu, son deyil, başlanğıcdır. Ardınca Bakının Ermənistana neft məhsullarının ixracına başlaması regional situasiyanın daha fərqli mərhələyə keçdiyini göstərir. Bu addım təkcə iqtisadi mahiyyət daşımır, eyni zamanda Azərbaycanın sülh prosesinə sadiqliyinin, sabitlik və qarşılıqlı asılılıq üzərində qurulan yeni regional düzənin tərəfdarı olduğunun bariz nümunəsidir.



### 788,8 min ABŞ dolları dəyərində məhsul ixracı...

Xatırladaq ki, ötən il dekabrın 18-də sülh gündəliyinə uyğun olaraq Azərbaycandan Ermənistana neft məhsullarının ixracına başlanılıb. Noyabrın 28-də Qəbələ şəhərində Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın görüşündə əldə edilmiş razılaşmaya əsasən, SOCAR tərəfindən istehsal edilmiş Aİ-95 markalı 22 vaqon benzin yola salınıb. Azərbaycan neft məhsullarının Ermənistana ixracı sırf kommersiya xarakterlidir və benzin beynəlxalq bazar qiymətlərinə uyğun satılır. İlkin mərhələdə 22 vaqona yüklənmiş 1220 ton Aİ-95 markalı avtomobil yanacaq Azərbaycan Dəmir Yollarının (ADY) yük qatarı ilə Bakı Yük Stansiyasından Böyük Kəsik stansiyası istiqamətində yola salınıb. Yük Gürcüstan vasitəsilə Ermənistana çatdırılıb.

Bu il yanvarın 9-da isə Azərbaycandan Ermənistana neft məhsullarının növbəti partiyası yola salınıb. 1742 ton Aİ-95 benzini və 956 ton dizel olmaqla, ümumilikdə 2698 ton (ümumilikdə 48 vaqon) yük Biləcəri stansiyasından Ermənistana göndərilib. Nəticə etibarı ilə, Azərbaycan Ermənistana 788,8 min ABŞ dolları dəyərində məhsul ixrac edib.

Beləliklə, Bakı göstərir ki, sülh abstrakt anlayış deyil, konkret iqtisadi faydalar və rifah deməkdir. Azərbaycanın atdığı bu addımlar regionda etimadın bərpasına xidmət etməklə yanaşı, sülh prosesinin praktik əsaslar üzərində inkişafına da real zəmin yaradır.

### “Ermənistana neft məhsullarının ixracına başladıq”

Bu ixrac əməliyyatları, ərazimizdən Ermənistana yük daşınmasına icazə verilməsi rəsmi sülh sazişi imzalanmadan belə, Bakı ilə İrəvan arasında praktiki və praqmatik əməkdaşlıq elementlərinin formalaşmağa başladığını göstərir. Təbii ki, bu əməkdaşlıq zəmini sülh prosesinin inkişafına da təsir göstərmədir - prosesin daha da inkişaf etdirilməsi siyasi proseslərin istiqamətlərindən və tərəflər arasında etimad mühitinin dərinləşməsindən asılı olacaq. Fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində “Zayed İnsan Qardaşlığı Mükafatı”nın təqdimolunma mərasimindəki çıxışında Prezident İlham Əliyev bildirib ki, bu altı ay münasibətlərimizin inkişafı baxımından çox mühüm olmuşdur: “Biz təkcə Azərbaycan ərazisindən Ermənistana yük daşımalarına qoyulmuş məhdudiyyətləri aradan qaldırmadıq, eyni zamanda, Ermənistana neft məhsullarının ixracına da başladıq. Yəni bu altı ay ərzində biz əməkdaşlığa başlamışıq. Hazırda ticarət əlaqələrimizi genişləndiririk”.

Vurğulandığı kimi, Azərbaycanın Ermənistana neft məhsullarının nəqli qərarı sülh prosesinin formalaşması və dayanıqlı xarakter alması baxımından strateji əhəmiyyət daşıyır. Çünki sülh yalnız siyasi bəyanatlar və diplomatik danışıqlarla deyil, tərəflər arasında qarşılıqlı etimad yaradan real iqtisadi əlaqələr vasitəsilə möhkəmlənir. Enerji kimi həyati və strateji sahədə əməkdaşlıq isə bu etimadın ən təsirli təminatçılarından biridir. Bakı bu addımla göstərir ki, sülh təşəbbüsü taktiki manevr deyil, uzunmüddətli regional sabitliyə hesablanmış düşünülmüş siyasətin tərkib hissəsidir.

### Sülh inkişaf modelidir...

Neft məhsullarının nəqli Ermənistanın enerji təminatında kənar risklərin azalmasına, eyni zamanda regiondaxili əlaqələr mexanizmlərinin formalaşmasına xidmət edir. Bu əlaqələr isə özlüyündə əməkdaşlığı stimullaşdırır. Çünki iqtisadi əlaqələr nə qədər sistemli olarsa, münaqişə riskləri bir o qədər azalır. Azərbaycan bu reallığı nəzərə alaraq postmüharibə mərhələsində sülhü iqtisadi məzmunla zənginləşdirir və prosesin geri dönməzliyini təmin etməyə çalışır.

Digər tərəfdən, enerji əməkdaşlığı Ermənistan cəmiyyətinə də mühüm mesaj verir. Bu mesaj ondan ibarətdir ki, sülh ritorikası real dividendlər yaradır, qarşıdurma isə sosial-iqtisadi itkilərlə nəticələnir. Azərbaycan tərəfindən atılan bu addım sülhün yalnız regional deyil, eyni zamanda daxili ictimai dəstək qazanmasına şərait yaradır. Bu isə sülhün uzunmüddətli və davamlı olmasının əsas şərtlərindən biridir.

Azərbaycanın atdığı bu addım Bakının regionda yeni nizamı zor gücü ilə deyil, əməkdaşlıq, qarşılıqlı fayda və iqtisadi inteqrasiya üzərində qurduğunu təsdiqləyir. Məhz bu yanaşma sülhü müvəqqəti razılaşmadan real və davamlı inkişaf modelinə çevirir.

**P.İSMAYILOV**



# Azərbaycan Rusiyaya nota verib

Dünən Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə çağırılıb.

Rusiya səfiri ilə görüş zamanı, 5 fevral tarixində Rusiya Federasiyası Dövlət Dumasının MDB, Avrasiya inteqrasiya məsələləri və həmvətənlərlə əlaqələr Komitəsinin sədrinin birinci müavini, hakim “Vahid Rusiya” Partiyasının üzvü Konstantin Zatulinin ölkəmizdə Ermənistan Respublikası vətəndaşlarının məhkum olunması ilə bağlı bəyanatı ilə əlaqədar kəskin etiraz bildirilib və Rusiya tərəfinə müvafiq nota təqdim edilib.

K.Zatulinin uzun müddətdir Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü əleyhinə çıxışlar etməsi, separatizmə açıq dəstək nümayiş etdirməsi, habelə Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, eləcə də hərbi cinayətlər törətməkdə təqsirli bilinərək məhkum olunmuş Ermənistan Respublikası vətəndaşları ilə bağlı məhkəmə qərarlarını təhrif etməyə cəhd göstərməsi və qəbuledilməz ifadələr işlətməsi qətiyyətlə pislənib.

Görüşdə, Rusiya tərəfi bölgədə sülh və sabitliyə, eləcə də Azərbaycanla Rusiya arasında münasibətlərə zərbə vurmağa çalışan Zatulin kimi şəxslərin destruktiv fəaliyyətinə son qoyulması üçün müvafiq tədbirlər görməyə çağırılıb.

# Azərbaycan Prezidentinin Əbu-Dabiyə səfəri dünya mediasında...


Aliyev ve Paşinyan'a "2026 Zayed İnsan Kardeşliği Ödülü" verildi


Алиев заявил о начале практического сотрудничества Армении и Азербайджана


Il Premio Zayed e il messaggio del Papa sulla fraternità umana. Leone XIV riconosce gli sforzi di pace tra Azebaigian e Armenia e auspica collaborazione e dialogo per la Palestina (Chiara Lonardo)


Zayed 2026: Un Premio Alla Pace, All'istruzione E All'aiuto Umanitario


TravelsDubai
Peace over war: Azerbaijan, Armenia leaders receive Zayed Human Fraternity Award in Abu Dhabi


الوطن


Hürriyet
Abu Dabi'de kritik temas: Aliyev ve Paşinyan görüştü

Azerbaycan Cumhurbaşkanı İlham Aliyev ile Ermenistan Başbakanı Nikol Paşinyan Birleşik Arap Emirlikleri'nin (BAE) başkenti Abu Dabi'de görüştü.

Birleşik Arap Emirlikleri (BAE), Azerbaycan ile Ermenistan liderlerine ev sahipliği yaptı. Azerbaycan Cumhurbaşkanı İlham Aliyev ile Ermenistan Başbakanı Nikol Paşinyan, başkent Abu Dabi'de bir araya geldi. Paşinyan ile Aliyev, baş başa ve heyetlerarası görüşme gerçekleştirdi.

Heyetlerarası toplantıya Ermenistan tarafından Başbakan Yardımcısı Mher Grigoryan, Ulusal Güvenlik Konseyi Sekreteri Armen Grigoryan, Dışişleri Bakanı Ararat Mirzoyan ve Meclis Başkan Yardımcısı Ruben Rubinyan; Azerbaycan heyetinden ise Başbakan Yardımcısı Şahin Mustafayev, Dışişleri Bakanı Ceyhun Bayramov, Cumhurbaşkanı Yardımcısı Hikmet Hacıyev ve Azerbaycan Cumhurbaşkanı'nın Özel Temsilci Elçin Emirbeyov katıldı.

Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 2-də Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) işgüzar səfəri və bu səfər çərçivəsində Ermənistanın Baş naziri Nikol Paşinyan ilə keçirdiyi görüş, həmçinin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın dövlətimizin başçısına təqdimolunma mərasimi dünyanın bir sıra ölkələrinin aparıcı media qurumlarının diqqət mərkəzində olub. Yayımlanan xəbərlərdə dövlətimizin başçısının Ermənistanın Baş naziri ilə görüşü zamanı Bakı ilə İrəvan arasında münasibətlərin normallaşdırılması prosesində müsbət impulsun qorunmasının vacibliyinə dair səsləndirilən fikirlər yer alıb.

Misir, Küveyt, Səudiyyə Ərəbistanı, Mərakeş və Livan mətbuatında Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanın Əbu-Dabidə keçirdiyi görüş keçmişdə mövcud olan gərginliyin tamamilə aradan qaldırılması və regional sabitliyin möhkəmləndirilməsi istiqamətində davam edən səylərin göstəricisi kimi qiymətləndirilib. Misirin "Youm7", Səudiyyə Ərəbistanının "SA24", Küveytin "Q8-Press" və Livanın "Athabat" nəşrlərinin məlumatına görə, görüşdə ikitərəfli ticarətin başlaması, eləcə də Azərbaycandan Ermənistana neft məhsullarının ixracı müsbət addım kimi qiymətləndirilib. Bildirilir ki, bu proseslər artıq tərəflər arasında sülhün praktik faydalarının hiss olunmasına imkan yaradır.

Mərakeşdə fəaliyyət göstərən "A5r5br" və ərəbdilli "Mvlana" portalı isə görüşün Cənubi Qafqazda regional sabitliyin möhkəmləndirilməsi və uzun illər davam edən gərginliyin aradan qaldırılması istiqamətində beynəlxalq səylərin tərkib hissəsi olduğunu qeyd edib. Ərəb mediası vurğulayır ki, Əbu-Dabidə baş tutan təmaslar Azərbaycan-Ermənistan dialoqunun davam etdirilməsinə və etimad quruculuğu tədbirlərinin genişləndirilməsinə xidmət edir. Həmçinin bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan fevralın 4-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə 2026-cı il "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində iştirak ediblər. Mükafat bu il hər iki liderə təqdim olunub.

İspaniyanın "Aciprensa" xəbər portalı isə yazır ki, mükafatın təqdimolunma mərasimi Azərbaycanla Ermənistan arasında dialoqun davam etdirilməsinə və sülh səylərinin tanınmasına stimul verib.

İsveçrənin "Swissinfo" və Paraqvayın "ABC" saytı xəbər verir ki, tərəflər ikitərəfli ticarət əlaqələrinin genişləndirilməsini, enerji ixracı və Azərbaycan ərazisindən tranzit imkanlarının artırılmasını müsbət addım kimi qiymətləndiriblər. Liderlər, həmçinin TRIPP dəhlizi və digər nəqliyyat layihələrinin reallaşdırılmasının normallaşma prosesini dəstəklədiyini vurğulayıblar. "Commonspace" isə görüşü ikitərəfli iqtisadi əməkdaşlıq və regional inteqrasiyanın gücləndirilməsi baxımından önəmli addım hesab edib. Həmin saytda dərc olunan xəbərdə vurğulanır ki, Əbu-Dabidə baş tutan təmaslar gələcəkdə sülhün və sabitliyin möhkəmləndirilməsinə, iqtisadi əlaqələrin daha sistemli şəkildə qurulmasına və regionda uzunmüddətli əməkdaşlıq mədəniyyətinin inkişafına yönəlmiş perspektivlərin müəyyənləşdirilməsinə xidmət edir.

Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfəri və Ermənistanın Baş naziri ilə keçirdiyi görüş Türkiyənin aparıcı media qurumlarında da geniş işıqlandırılıb. Türkiyənin rəsmi Anadolu agentliyinin materialında "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində dövlət və hökumət başçıları Rəcəb Tayyib Ərdoğan, Kasım-Jomart Tokayev, Şavkat Mirziyoyev, Sadır Japarov, Kral II Abdulla, Şahbaz Şərifin Azərbaycan Prezidentinin müdrik və düşünülmüş rəhbərliyi sayəsində regionda sülhün və təhlükəsizliyin bərqərar olması barədə fikirləri yer alıb. Agentlik vurğulayıb ki, Prezident İlham Əliyev mərasimdəki çıxışında Azərbaycan ilə Ermənistan arasında sülhün təkcə iki ölkə üçün deyil, bütün geniş region üçün əhəmiyyətini vurğulayıb. Materialda diqqətə çatdırılıb: "Zayed İnsan Qardaşlığı Mükafatı"na görə təşəkkürünü bildirən Azərbaycan Prezidenti qeyd edib ki, Vaşinqtonda imzalanan Birgə Bəyannamədən ötən altı ay Azərbaycan-Ermənistan münasibətlərinin inkişafı baxımından çox mühüm olub. Yazıda Prezident İlham Əliyevin aşağıdakı sözləri sitat gətirilib: "Biz təkcə Azərbaycan ərazisindən Ermənistana yük daşımalarına qoyulmuş məhdudiyyətləri aradan qaldırmadıq, eyni zamanda, Ermənistana neft məhsullarının ixracına da başladıq. Yəni bu altı ay ərzində biz əməkdaşlığa başlamışıq. Hazırda ticarət əlaqələrimizi genişləndiririk. Bu səhər ermənistanlı həmkarımla görüşdüm və gələcək addımlarımızı müzakirə etdik".

Türkiyənin "Hürriyet" qəzetinin dərc etdiyi "Əbu-Dabidə kritik təmas: Əliyev Paşinyan ilə görüşdü" sərlövhəli məqalədə bildirilib ki, tərəflər hər iki cəmiyyətin sülhün faydalarına real həyatda şahid olduqlarını qeyd ediblər. Onlar ikitərəfli ticarətin başlamasından və Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davam etməsindən, həmçinin üçüncü ölkələrdən Ermənistana taxıl və digər malların Azərbaycan ərazisindən tranzitinin həyata keçirilməsindən məmnun olduqlarını bildiriblər. Bakı və İrəvan ikitərəfli ticarət və iqtisadi əməkdaşlığı genişləndirmək üçün imkanları araşdırmağı davam etmək barədə razılığa gəliblər.

Qardaş ölkənin "İhlas" xəbər agentliyinin və "Haber Global" telekanalının saytında, həmçinin "Akşam", "Yeni Akit", "Birgün" qəzetlərində, "Haber365", "Haberlerim", "Son dakikam", "Haber sitesi" və geniş auditoriyaya malik digər portallarda Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim olunması, həmçinin onun Ermənistanın Baş naziri ilə keçirdiyi görüş barədə materiallar dərc olunub.

Rusiyanın bir sıra nəşrləri də Prezident İlham BƏƏ səfəri və Ermənistanın Baş naziri ilə keçirilən görüş barədə xəbərlər yayımlayıb. "Tass.ru", "Trtrussian.com", "kommersant.ru", "kp.ru", "ng.ru", "rbc.ru", "interfax.ru", "lenta.ru", "news.ru" xəbər portallarında dərc edilən xəbərlərdə ikitərəfli ticarətin başlamasından və Azərbaycandan Ermənistana neft məhsullarının ixracının davam etməsindən bəhs edilib. Xəbərlərdə, həmçinin tərəflərin ikitərəfli ticarəti və iqtisadi əməkdaşlığı genişləndirmək üçün imkanları araşdırmağa davam etmək barədə razılığa gəldikləri vurğulanır.

Özbəkistanın "zamin.uz" saytının dərc etdiyi xəbərdə də Əbu-Dabidə keçirilən görüşdə Azərbaycan Prezidentinin Ermənistanın Baş naziri ilə iki ölkə arasında münasibətlərin yumşaldılması və sabitləşdirilməsi istiqamətində atılan son addımları müzakirə etdiyi vurğulanıb. Yazıda, həmçinin qeyd edilib: "Danışıqlar şou deyil, uzun bir marafondur. Amma əgər ticarət işləyirsə, tranzit gedirsə, insanlar gəlib-getməyə başlayırsa, deməli, yol doğrudur. İndi isə sadəcə sürəti itirməmək lazımdır".

Pakistanın "Pakistan in the World" nəşri və Qazaxıstanın "İnform.kz" portallarında da Prezident İlham Əliyevə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim edilməsi barədə xəbərlər dərc olunub.

*Nardar BAYRAMLI*



# Şad gündə də, dar gündə də bir yerdə

*Mübariz ABDULLAYEV*

Dünyada zirvədə olan Azərbaycan-Türkiyə qardaşlığının analoqu yoxdur. Ortaq tarixə söykənən qarşılıqlı münasibətlərlərini böyük Atatürkün söylədiyi "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" fikrrinə və Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsinə uyğun quran Azərbaycanla Türkiyə şad günlərdə də, dar günlərdə də hər zaman bir-birinin yanında olurlar.

Üç il bundan əvvəl qardaş ölkədə baş verən dəhşətli zəlzələ zamanı Azərbaycanın faciəni öz kədəri kimi qəbul etməsi və Türkiyəyə hər cür dəstək verməsi bunun əyani təsdiqidir. Prezident İlham Əliyev bugünlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana ünvanladığı məktubunda dəhşətli faciə nəticəsində həlak olmuş insanların əziz xatirəsini böyük ehtiram və hörmətlə yad etdiyini bildirib.

**Ciddi humanitar sınaq və qardaş ölkənin yenilməz əzmi**

Zəlzələnin miqyası çox böyük idi. Baş verənləri Türkiyə üçün ciddi humanitar sınaq kimi səciyyələndirən dövlətimizin başçısı "Bir gecədə minlərlə insan həyatını itirdi, bir çox şəhər və yaşayış məntəqələri dağıntıya məruz qaldı", - deyə bildirib.

Dağıdıcı zəlzələdə 53 min 537 nəfər həyatını itirib, 107 min 213 nəfər isə müxtəlif bədən xəsarətləri alıb. Zəlzələ nəticəsində 38 min 901 bina dağılıb. Verilən məlumata görə, 11 vilayət, 124 rayon, 6929 kənd və məhəllə olmaqla 120 min kvadratkilometr əraziyə və 14 milyon insana təsir edən bu zəlzələ insan itkisi və əhatə etdiyi ərazi baxımından dünya üzrə ən dağıdıcı təbii fəlakətlər siyahısına daxil olub. Zəlzələ nəticəsində dəyən maddi ziyanın məbləği 150 milyard dollar həcmində dəyərləndirilir.

Belə genişmiqyaslı dağıdıcı zəlzələnin nəticələrini yalnız güclü dövlətlər aradan qaldıra bilərlər. Üç ilin yekunları göstərir ki, Türkiyə Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə bunu bacarıb. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısına xitabən bildirib: "Sizin müdrik rəhbərliyiniz altında aparılan güclü dövlət idarəçiliyi və xalqın birliyi sayəsində hazırda Türkiyə zəlzələnin nəticələrinin aradan qaldırılması istiqamətində mühüm nəticələr əldə etmişdir. Zərər çəkmiş bölgələrdə genişmiqyaslı yenidənqurma işlərinin aparılması, müasir yaşayış infrastrukturunun yaradılması və sosial rifahın bərpası Türkiyənin uzunmüddətli inkişaf strategiyasının bariz göstəricisidir".

Faciə baş verəndən sonra təbii fəlakət bölgəsinə 650 min nəfərlik işçi qüvvəsi cəlb olunub. Onlardan 11 min 488-i beynəlxalq olmaqla 35 min 250-si axtarış-xilasetmə, 142 mini isə təhlükəsizlik işçisi idi. Bütün bu işlərin aparılması üçün 20 min avtomobil və tikinti texnikası, 141 helikopter, 182 təyyarə və 23 gəmi ayrılıb.

İlkin mərhələdə bölgəyə 1 milyon çadır çatdırılıb ki, bu da təxminən 2,5 milyon zərərçəkənin müvəqqəti sığınmasına imkan yaradıb. Bölgədən 3 milyon 549 min nəfər təxliyə edilib.

Türkiyə dövləti ənənəvi olaraq monolit və ümummilli ideyalara sadiq olan cəmiyyəti ilə fərqlənib. Qəhrəman türk xalqı miqyası çox böyük olan 6 fevral faciəsini də bir sınaq kimi qəbul etdi. Eyni zamanda, bütün dünya Türkiyə dövlətinin və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğanın çətin məqamlarda xalqın yanında olduğuna şahidlik etdi. Bunu zəlzələ baş verən bölgələrdə həyata keçirilən bərpa işləri əyani şəkildə təsdiqləyir. Ötən 3 ildə zəlzələ bölgəsində 455 mindən çox tikilinin inşası tamamlanıb. Bölgənin bərpasını sürətləndirmək üçün 67 fərqli şirkətə Kahramanmaraşın 11 kəndində tikinti işləri aparmaq hüququ verilib. Türkiyənin şəhərsalma və iqlim dəyişiklikləri naziri Murat Kurum zəlzələnin üçüncü ilinə həsr olunmuş tədbirdə bildirib ki, bərpa prosesi əsasən ölkənin öz gəlirləri hesabına həyata keçirilib. Dost ölkələrin dəstəyinin olduğunu bildirən nazir əlavə edib ki, görülən işlərin təxminən 95 faizi Türkiyənin daxili maliyyə mənbələri hesabına gerçəkləşdirilib.

**Azərbaycan xalqı Türkiyənin yanında oldu, dəstək və yardım əlini uzatdı**

Üç il bundan əvvəl qardaş ölkədən gələn zəlzələ xəbəri respublikamızda da böyük üzüntü ilə qarşılandı. "Həmin günlərdə Azərbaycan xalqı baş verənləri dərin ağrı hissi ilə izləyərək qardaş Türkiyənin kədərini öz kədəri kimi qəbul etdi, onun dərdinə şərik çıxdı. Azərbaycan-Türkiyə münasibətlərinin əsasında duran sarsılmaz qardaşlıq məhz belə çətin məqamda öz real mahiyyətini nümayiş etdirdi. Faciənin ilk anlarından etibarən Azərbaycan dövləti və cəmiyyəti birlik və həmrəylik prinsiplərinə sadiq qalaraq Türkiyənin yanında oldu, dəstək və yardım əlini uzatdı", - deyə dövlətimizin başçısı vurğulayıb.

Faciə xəbəri gələndən dərhal sonra Prezident İlham Əliyev fevralın 6-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu ünvanlayıb. Bu, mənəvi-siyasi dəstəklə yanaşı, Azərbaycan yardıma birinci gələn və fəlakət bölgəsini son tərk edən ölkə olub. Zəlzələnin ilk günü - fevralın 6-da Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin 420 nəfərdən ibarət çevik xilasetmə qüvvələri Türkiyəyə yola düşüb. Fevralın 7-də ilkin olaraq mobil səhra hospitalı və 41 nəfərdən ibarət peşəkar tibbi və qeyri-tibbi heyət Türkiyəyə göndərilib. Daha sonra isə növbəti təyyarə ilə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün çadırlar, ədyal və qızdırıcılar, habelə mobil səhra hospitalı üçün 3 ədəd konteyner göndərilib. Fevralın 8-də Fövqəladə Hallar Nazirliyinin daha 227 nəfərdən ibarət çevik xilasetmə qüvvələri qardaş ölkəyə yola düşüb. Dövlət xətti ilə texniki dəstək və humanitar yardımlar sonrakı günlərdə də ardıcıl şəkildə davam etdirilib.

Bundan başqa, birinci xanım Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu Türkiyənin zəlzələ bölgəsinə humanitar yardımlar yola salıb. Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi (RİİB) Türkiyənin ölkəmizdəki səfirliyinin zəlzələ bölgəsinə humanitar yardım göstərilməsi məqsədi ilə Azərbaycan vətəndaşlarının çağırışına qoşularaq qardaş ölkəyə dəstək məqsədilə humanitar yardım kampaniyasına start verib. Deyə bilərik ki, Heydər Əliyev Fondunun çağırışı ilə bu kampaniyaya bütün Azərbaycan cəmiyyəti qoşulub. Həmin günlərdə sadə bir azərbaycanlı ailənin zəlzələ bölgəsinə yorğan-döşək göndərməsini əks etdirən foto Azərbaycanda və Türkiyədə, eləcə də dünya mətbuatında manşetlərdə yerləşdirildi. Bəli, həmin günlərdə Azərbaycanda hər kəsin qəlbi Kahramanmaraşda, zəlzələdən zərər çəkmiş insanlarla bir yerdə döyünürdü. Bu, əsl qardaşlıq, doğmalıq hissi idi. Azərbaycanın qardaşlıq dəstəyi Türkiyə dövləti və cəmiyyəti tərəfindən yüksək qiymətləndirilib.

**Qardaşlıq borcunun təzahürü - Kahramanmaraşda "Azərbaycan" məhəlləsi**

Zəlzələdən sonra Kahramanmaraşda "Azərbaycan" məhəlləsi yaradılıb. Bunu yüksək dəyərləndirən Prezident İlham Əliyev bildirib: "Qardaşlıq borcumuzun təzahürü olaraq Azərbaycan Kahramanmaraş vilayətində aparılan yenidənqurma və bərpa işlərinə töhfə vermiş, burada "Azərbaycan" məhəlləsinin salınmasında yaxından iştirak etmişdir. Qardaş ölkənin bərpa və quruculuq səylərinə Azərbaycanın dəstəyi dostluq və müttəfiqlik münasibətlərimizin əyani ifadəsidir".

Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin yaradılması layihəsi 100 milyon dollarlıq tikinti işlərini əhatə edir. "Azərbaycan və Türkiyə arasında Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikintisi barədə əməkdaşlıq haqqında" saziş 2023-cü il sentyabrın 25-də Naxçıvan şəhərində imzalanib.

Kahramanmaraş vilayətində inşa olunan "Azərbaycan" yaşayış məhəlləsinin açılışı 2025-ci il 19 iyun tarixində Türkiyənin və Azərbaycanın dövlət başçılarının iştirakı ilə baş tutub. Məhəllənin ümumi sahəsi 32 hektar təşkil edir. Layihəyə əsasən məhəllə yaşayış binaları, ibtidai məktəb və uşaq bağçası, mədəniyyət mərkəzindən ibarətdir. Tikinti işləri Azərbaycanın Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən həyata keçirilib. Məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin burada məskunlaşacaq ailələr üçün 1595 ticarət obyektinin yaradılması da layihələndirilib. Məhəllədəki Heydər Əliyev adına ibtidai məktəbin və uşaq bağçasının açılışları isə 2024-cü il sentyabrın 11-də baş tutub. "Azərbaycan" məhəlləsinin Baş planı üzrə 7, 8, 11 və 12-ci kvartalların tikintisi artıq tamamlanıb. 4 kvartalda 26 yaşayış binası yerləşir. Binalar hamısı 4 mərtəbəlidir. Bu binalarda ümumilikdə 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib.

# Azərbaycandan növbəti nümunə: hüquq ən ali prinsipdir!



## Müharibə cinayətkarları layiqli cəzalarını aldılar

Azərbaycan dövləti müstəqillik əldə etdiyi ilk gündən etibarən beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini açıq şəkildə nümayiş etdirib. Ölkəmizin xarici və daxili siyasətinin əsas xətti ədalət, suverenlik, ərazi bütövlüyü və hüququn aliliyinə söykənib. Lakin təəssüf ki, bu prinsipial mövqe uzun illər ərzində Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti fonunda kobud şəkildə pozulub. Azərbaycan torpaqlarının işğalı ilə yanaşı, dinc əhaliyə qarşı törədilmiş ağır cinayətlər, soyqırımı aktları və kütləvi qırğınlar beynəlxalq ictimaiyyət tərəfindən ya görməzlikdən gəlinib, ya da ikili standartlarla qiymətləndirilib.

Xocalı soyqırımı, Ağdaban faciəsi, Başlıbel qətliamı və digər onlarla cinayət faktı təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə insanlığa qarşı törədilmiş cinayətlərdir. Bu hadisələr zamanı qadınlar, uşaqlar, qocalar xüsusi qəddarlıqla qətlə yetirilib, əsir və girov götürülən şəxslərə qarşı işgəncələr tətbiq olunub. Lakin bütün bu cinayətlərin təşkilatçıları və icraçıları uzun illər ərzində cəzasız qalıb. Bu isə beynəlxalq hüququn, xüsusilə də humanitar hüququn açıq şəkildə tapdanması demək idi.

2020-ci ildə Vətən müharibəsi və daha sonra həyata keçirilən antiterror tədbirləri həm də illərdir gizlənən cinayətkarların məsuliyyətə cəlb olunması üçün real hüquqi zəmin yaratdı. Azərbaycan dövləti bu məsələdə emosional yox, hüquqi yanaşma sərgilədi. Cinayət törətmiş şəxslər saxlanıldı, istintaqa cəlb olundu və məhkəmə qarşısında cavab verdilər. Proseslər beynəlxalq hüququn bütün tələblərinə uyğun aparıldı, həmin şəxslər vəkillə təmin edildi, hüquqları qorundu. Bu, Azərbaycanın intiqam yox, ədalət dövləti olduğunu bir daha sübut etdi.

**Cinayətkarlar ədalət mühakiməsində...**

Qeyd edək ki, artıq Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesində təqsirləndirilən şəxslərə hökm oxunub. Hökmə əsasən təqsirləndirilən Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan,  David Babayan ömürlük, Bako Sahakyanın və  Arkadi Qukasyanın (ömürlük azadlıqdan məhrumetmə növündə cəza nəzərdə tutan cinayətlərin törədilməsində ittiham olunmasına və həmin ittihamların məhkəmə istintaqı zamanı sübuta yetirilməsinə baxmayaraq, yekun məhkəmə qərarı, yəni hökm çıxarılanadək həmin təqsirləndirilən şəxs 65 yaşına çatdığı üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin tələblərinə əsasən ona ömürlük azadlıqdan məhrumetmə cəzası təyin edilə bilməz) qəti olaraq 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər.

**Azərbaycan prinsipial mövqeyindən dönmədi**

Adıçəkilən cinayətkarların məhkəmə prosesi davam etdiyi vaxtlarda proses xarici dairələrdə ciddi narahatlıq yaratmışdı. Xüsusilə Avropa Parlamenti, AŞPA kimi "beynəlxalq" statuslu təsisatlar, Fransa kimi bəzi dövlətlər bu şəxslərin azadlığa buraxılması istiqamətində əsassız siyasi təzyiqlər göstərməyə başlamışdılar. Bununla bağlı qətnamələr qəbul edildi, birtərəfli bəyanatlar səsləndirildi, hüquqi yox, siyasi motivli çağırışlar edildi. Bu yanaşma bir daha sübut etdi ki, bəzi beynəlxalq qurumlar üçün insan hüquqları anlayışı selektiv xarakter daşıyır.

Lakin bu təzyiqlər Azərbaycan rəhbərliyinin qəti mövqeyinə heç bir təsir göstərmədi. Prezident İlham Əliyevin prinsipial mövqeyi ondan ibarət idi ki, insanlıq əleyhinə cinayət törətmiş şəxslər mütləq hüquq qarşısında cavab verməlidir. Azərbaycan dövləti heç bir halda beynəlxalq hüququn tələblərindən kənara çıxmadı, lakin eyni zamanda öz suveren hüquqlarını da güzəştə getmədi.

Qəribədir ki, Avropa Parlamenti və AŞPA kimi qurumlar öz ölkələrində cinayət törədən şəxslərin sərt şəkildə cəzalandırılmasını normal hesab etdikləri halda, Azərbaycan xalqına qarşı kütləvi qırğınlar törətmiş şəxslərin "siyasi məhbus" kimi təqdim olunmasına çalışdılar. Bu isə açıq-aşkar ikili standartların nümunəsi idi. Azərbaycan bu riyakarlığa qarşı hüquq dili ilə cavab verdi və göstərdi ki, ədalət siyasi maraqlara qurban verilməməlidir.

**Müharibə cinayətlərinə hüquqi qiymət: ədalətin təntənəsi**

Bu prosesdə diqqətçəkən ən əsas məqamlardan biri insanlıq əleyhinə və müharibə cinayətləri törətmiş şəxslərin məsuliyyətə cəlb olunmasının ədalətin bərqərar olması baxımından müstəsna əhəmiyyət daşımasıdır. Təəssüf ki, dünya praktikasında münaqişələr başa çatdıqdan sonra çox vaxt cinayətkarlar cəzasız qalır. Bu isə müharibələrin natamam və ədalətsiz həlli deməkdir. Çünki cəzasızlıq yeni cinayətlər üçün zəmin yaradır. Azərbaycan bu mənada fərqli və nümunəvi yol seçdi. Müharibə bitdikdən sonra revanşizmə deyil, hüquqa üstünlük verildi. Cinayətkarların məhkəmə qarşısına çıxarılması təkcə Azərbaycan üçün yox, beynəlxalq hüquq sistemi üçün də mühüm presedentdir. Bu yanaşma göstərir ki, hətta illər keçsə belə, törədilmiş cinayətlər unudulmamalı və hüquqi qiymətini almalıdır.

Bir çox ölkələrdə münaqişələrdən sonra "siyasi sabitlik naminə" cinayətkarlar əfv edilir və ya siyasi təzyiqlərlə həmin şəxslər məsuliyyətdən yayındırılır. Azərbaycan isə sübut etdi ki, real sabitlik yalnız ədalət üzərində qurula bilər. Bu, həm günahsız qurbanların xatirəsinə hörmət, həm də gələcək nəsillər üçün mühüm dərsdir.

**İsrail təcrübəsi - ədalət anlayışı zamanla köhnəlmir**

Əslində Azərbaycanın bu istiqamətdə addımları ilk deyil - tarixdə müharibə cinayətkarlarının illər sonra da olsa məsuliyyətə cəlb edilməsi ilə bağlı ən tanınmış nümunələrdən biri İsrailin təcrübəsidir. İkinci Dünya müharibəsindən sonra faşist Almaniyasının milyonlarla yəhudinin qətlində iştirak etmiş cinayətkarları dünyanın müxtəlif ölkələrində gizlənmişdilər. İsrail dövləti illər keçməsinə baxmayaraq, bu şəxslərin tapılması və mühakimə olunması üçün ardıcıl və prinsipial siyasət həyata keçirdi. Bu proses də asan olmadı, siyasi və hüquqi maneələr mövcud idi. Lakin İsrail "zaman keçib" arqumentini qəbul etmədi. Nəticədə bir sıra əsas cinayətkarlar məhkəmə qarşısına çıxarıldı və cəzalandırıldı. Beynəlxalq aləmin qarşısında susduğu bu təcrübə göstərdi ki, ədalət anlayışı zamanla köhnəlmir.

Azərbaycanın atdığı addımlar bu baxımdan İsrail təcrübəsi ilə səsləşir. Xalqımıza qarşı törədilmiş cinayətlərə hüquqi qiymət verilməsi ədalətin bərpasıdır və bu, tam legitim, beynəlxalq hüquqa uyğun yanaşmadır.

**Keçmiş Yuqoslaviya nümunəsi - Haaqa Tribunalı niyə və necə yarandı?**

Və ya Yuqoslaviya nümunəsi - keçmiş "Balkan İttifaqı"nda baş vermiş münaqişələrdən sonra müharibə cinayətlərinə hüquqi qiymət verilməsi beynəlxalq birliyin birgə səyləri nəticəsində mümkün oldu. Haaqa Tribunalı yaradıldı və bir sıra hərbi-siyasi liderlər məsuliyyətə cəlb edildi. Bu proses göstərdi ki, beynəlxalq ictimaiyyət istədiyi halda müharibə cinayətkarlarının cəzalandırılmasına real töhfə verə bilər.

Bu yanaşma bir daha sübut edir ki, suveren dövlət olaraq Azərbaycan beynəlxalq hüququ yalnız tələb etmir, eyni zamanda onu tətbiq edir. Bu isə ölkəmizin hüquqi dövlət imicini daha da möhkəmləndirir.

**Tarixi ədalətin bərpası...**

Azərbaycan xalqına qarşı ağır cinayətlər törətmiş şəxslər layiqli cəzalarını alıblar. Vaxtilə həmin cinayətkarların azadlığını tələb edən dairələr isə əslində beynəlxalq hüququn əsas prinsiplərini ayaqlar altına alırlar. Fransada və ya Avropa Parlamentində erməni cinayətkarların müdafiəsinə qalxan deputatların öz ölkələrində cinayət törətmiş şəxslərə münasibəti necədir? Onlar azad buraxılırmı, yoxsa məhkəmə qarşısına çıxarılmırmı? Bu suallar ikili standartların mahiyyətini açıq şəkildə ortaya qoyur.

Azərbaycan isə bu prosesdə nə emosiyalara qapıldı, nə də hüquqdan kənara çıxdı. Bütün prosedurlar beynəlxalq hüquqa uyğun şəkildə həyata keçirildi. Bununla da dövlətimiz göstərdi ki, ədalət yalnız güclünün yox, haqlının tərəfindədir. Xalqımıza qarşı cinayət törədənlər nəhayət ki, hüquq qarşısında cavab verdilər və bu, tarixi ədalətin bərpası oldu.

*Pərviz SADAYOĞLU*

# Vaşinqtondan mesaj: Azərbaycanla işləməyi səbirsizliklə gözləyirik!




## Ceyms Vensin Bakıya səfəri ölkəmizin əsas tərəfdaş və etibarlı regional statusunu təsdiqləyir

ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vensin bir neçə gündən sonra regiona səfəri reallaşacaq. Son reallıqlar, xüsusilə ABŞ-Azərbaycan münasibətlərinin yeni dönəmdə yeni inkişaf mərhələsinə qədəm qoyması baxımından bu səfər olduqca vacib xarakter daşıyır. Səfər iki ölkə arasında mövcud əməkdaşlığın müzakirəsi ilə yanaşı, münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsinə dair Vaşinqtonun siyasi iradəsinin açıq nümayişi kimi diqqət çəkir. Qlobal geosiyasi transformasiyaların sürətləndiyi, ənənəvi güc balanslarının yenidən tənzimləndiyi bir dövrdə ABŞ-ın Cənubi Qafqazda məhz Azərbaycanı əsas tərəfdaş və etibarlı regional aktor kimi qəbul etməsi mühüm siyasi mesaj kimi qəbul olunur.

### Klassik əməkdaşlıqdan strateji tərəfdaşlığa...

Azərbaycan müstəqil, balanslaşdırılmış və praqmatik xarici siyasəti ilə regional təhlükəsizlik, enerji təminatı və nəqliyyat-logistika marşrutlarının formalaşdırılmasında aparıcı rol oynadığını faktiki olaraq sübut edib. Enerji təhlükəsizliyi sahəsində Avropanın əsas tərəfdaşlarından birinə çevrilən, postmüharibə dövründə sülh və əməkdaşlıq təminatçılarından birinə çevrilən Bakı artıq qlobal gündəlikdə də söz sahibidir. Məhz bu reallıqlar ABŞ-ın Azərbaycanın regional lider statusunu qəbul etməsini və açıq şəkildə dəstəkləməsini şərtləndirən əsas amillər sırasındadır.

Vensin səfəri fonunda aparılacağı proqnozlaşdırılan müzakirələr genişspektrlidir - xüsusilə, Vaşinqton Azərbaycanı Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və dayanıqlı inkişafın əsas dayağı kimi görür. Bu yanaşma ABŞ-ın bölgəyə baxışında yeni siyasi xəttin formalaşdığını, ikitərəfli münasibətlərin isə klassik əməkdaşlıq çərçivəsindən çıxaraq strateji tərəfdaşlıq müstəvisinə keçdiyini təsdiqləyir. Yeni mərhələdə Azərbaycan-ABŞ əlaqələrinin təhlükəsizlik, enerji, nəqliyyat, rəqəmsal transformasiya və regional sülh gündəliyi üzrə daha sistemli və dərin məzmun qazanacağı artıq real perspektiv kimi önə çıxır.

### Sülh, enerji, təhlükəsizlik əməkdaşlığı və "907"-ci düzəlişin ləğvi...

Sirr deyil ki, Donald Trampın hakimiyyətə gəlişi ilə Ağ Ev administrasiyasının prioritetləri də dəyişib - artıq ABŞ əvvəlki administrasiyaların apardığı ənənəvi dünya hegemonluğa, regionları nəzarət altına saxlamaq niyyəti ilə hərəkət etmir. Yeni dövrdə münasibətlər sisteminin mahiyyəti iqtisadi əməkdaşlıqdan, biznes mühiti formalaşdırmaqdan, iqtisadi dividendlər əldə etməkdən gedir ki, bu da təsadüfi deyil. Amerika dünyanın yeni nizamında əməkdaşlıq prinsiplərini ön plana çəkir. Amerikanın strateji maraqlarını Cənubi Qafqazda yönəldən ən mühüm amil də məhz budur - yeni nizamın ən mühüm faktoru kimi ortaya çıxmış tranzit nəqliyyat dəhlizləri (Orta dəhliz, Zəngəzur dəhlizi (TRIPP), eləcə də, ABŞ-ın geosiyasi durumu düzgün qiymətləndirməsi. Zəngəzur dəhlizinin (TRIPP) fəaliyyətində maraqlı olan ABŞ apardığı siyasətlə bu dəhlizin qlobal bağlantıya çevrilməsində maraqlı olduğunu ortaya qoyur. ABŞ-ın Azərbaycana artan marağına gəldikdə isə, rəsmi Bakının müstəqil xarici siyasət apararaq iqtisadi inkişafa diqqət ayırması, beynəlxalq layihələrə müəlliflik etməsi burada ilkin şərt kimi ön plana çıxır. Beləliklə, ABŞ-ın vitse-prezidentinin regiona səfərinin Azərbaycan üçün faydalı olacağı şübhəsizdir. Əvvəla, Ermənistan ilə sülh prosesi sürətlənəcək və sülh müqaviləsi imzalanarsa, dayanıqlı olacaq. Digər tərəfdən Azərbaycanın müttəfiq seçilərək onun daha da inkişafına nail olmaq məqsədilə 907-ci düzəlişin aradan qaldırılması aktuallaşacaq, Zəngəzur dəhlizinin (TRIPP) infrastrukturu üçün sərmayə ayrılması təmin olunacaq.

### Yeni strateji situasiya...



Bakı ilə Vaşinqton arasında ötən ilin avqustun 8-də Azərbaycan və ABŞ liderləri tərəfindən Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Anlaşma Memorandumunun imzalanması, birgə işçi qruplarının formalaşdırılması və institusional əməkdaşlığın dərinləşdirilməsi ABŞ-Azərbaycan münasibətlərinin taktiki deyil, strateji xarakter daşıdığını göstərir. Bu yanaşma regionda uzunmüddətli sabitliyin təmin olunmasına və yeni iqtisadi imkanların açılmasına xidmət edir. ABŞ üçün Azərbaycan təhlükəsiz və proqnozlaşdırıla bilən tərəfdaşdır, Azərbaycan üçün isə ABŞ qlobal sistemdə mühüm siyasi və iqtisadi dayaqlardan biridir. Vurğulandığı kimi, artıq Bakı yeni qlobal nizamda fəal və məsuliyyətli aktor kimi seçilir. Azərbaycanın xarici siyasət fəlsəfəsinin mərkəzində əməkdaşlıq, sülh və təhlükəsizlik tezisləri dayanır. Rəsmi Bakı qlobal və regional proseslərdə qarşıdurma deyil, dialoq və uzlaşma xəttini təşviq edir. Məhz bu yanaşma Azərbaycanın beynəlxalq nüfuzunu gücləndirir və onu yeni dünya nizamının əsas söz sahiblərindən biri kimi çıxış etməsinə şərait yaradır.

### ABŞ -ın rəsmi mövqeyi...

Yeri gəlmişkən, ABŞ Dövlət Departamentinin Azərbaycanla bağlı son açıqlamasında bildirilir ki, Vaşinqton Cənubi Qafqazın zəngin iqtisadi potensialını açmaq üçün Azərbaycanla işləməyi səbirsizliklə gözləyir. "2025-ci il avqustun 8-də Azərbaycan və Ermənistan arasında keçirilən tarixi sülh sammitinə əsaslanaraq, ABŞ Prezident Trampın sülh və rifah vizyonunu inkişaf etdirmək və Cənubi Qafqazın zəngin iqtisadi potensialını açmaq üçün Azərbaycanla işləməyi səbirsizliklə gözləyirik",- deyə açıqlamada qeyd olunur.

Dövlət Departamentinin ortaya qoyduğu bu mövqe son bir ildə ABŞ administrasiyasının rəsmi mövqeyini tam ifadə edir. Təsadüfi deyildi ki,  hələ ötən ilin əvvəlində Trampın Prezident kimi fəaliyyətə başlamasından az sonra Prezident İlham Əliyevə ünvanladığı "Novruz" bayramı ilə əlaqədar təbrik məktubunda da bildirilirdi ki, "ölkələrimiz uğurlara doğru sürətlə irəlilədikcə Sizinlə işləməyi səbirsizliklə gözləyirəm. Birləşmiş Ştatlar Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır".

Bu kimi faktlar bir daha sübut edir ki, Vaşinqtonun Cənubi Qafqaz siyasətində müşahidə olunan dəyişikliklər Azərbaycanın regional və qlobal roluna verilən önəmin artdığını göstərir. Tərəfdaşlıq formatının yenilənməsi, əməkdaşlıq sahələrinin genişləndirilməsi və siyasi dialoqun intensivləşdirilməsi bu münasibətlərdə keyfiyyətcə yeni mərhələnin başlandığını deməyə əsas verir. Bakı-Vaşinqton münasibətlərindəki bu ukomponentlər isə kompleks şəkildə Cənubi Qafqaz regionu üçün həm geostrateji, həm geoiqtisadi, həm də geosiyasi mənada yeni üfüqlər açır.

*Pərviz SADAYOĞLU*

**Zəngəzur dəhlizi Şərq-Qərb və Şimal-Cənub marşrutlarını əlaqələndirən nəhəng haba çevriləcək**

# Ölkəmiz Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırır

Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində keçirilən Dünya Hökumətləri Zirvə Toplantısı çərçivəsində "Yeni İpək Yolu" Forumu keçirilib. Qlobal forumda dünyanın aparıcı korporasiyaları və innovasiya, rəqəmsal şirkətlərinin rəhbərləri, Beynəlxalq Valyuta Fondu, Dünya Bankının üzvü olan Beynəlxalq Maliyyə Korporasiyasının, eləcə də 35-dən çox dövlət başçısı və hökumət nümayəndə heyəti iştirak edib. Tədbirdə 5 əsas mövzu - qlobal idarəetmə və effektiv liderlik, sosial rifah və gücləndirilmiş potensiallar, iqtisadi rifah və strateji investisiyalar, şəhər gələcəyi, inkişaf edən sərhədlər istiqamətləri üzrə məruzələr dinlənilib, müzakirələr aparılıb. Həmçinin beynəlxalq nəqliyyat əməkdaşlığının gücləndirilməsi, nəqliyyat dəhlizlərinin inkişafı və regional logistika potensialının reallaşdırılması forumun əsas müzakirə mövzularından biri olub.




Dünya Hökumətləri Zirvəsi Təşkilatının sədri Məhəmməd Əl Qerqavi bildirib ki, dünya hazırda ənənəvi sistemlərin hərtərəfli yenidən qurulmasının şahidi olur, bu, qısamüddətli dəyişikliklər qlobal iqtisadiyyatın yeni xəritəsini formalaşdırır. Yeni mənzərədə ən çox diqqətçəkən məsələlərdən biri kommunikasiyaların coğrafi fraqmentasiyalarındakı dəyişikliklərdir. Müxtəlif regionlarda nəqliyyat-kommunikasiya xətlərinin inteqrasiyaları qlobal ticarətin və logistikanın da sərhədlərini dəyişdirir, investisiyaların strukturuna təsir edir. Bu dəyişikliklər iqtisadi, kommersiya və investisiya əlaqələrində də bir sıra meyilləri meydana çıxarır.

## Orta Dəhliz vasitəsilə yükdaşımalar 11 faiz artıb

Tədbirdə çıxış edən Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov ölkəmizin Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsindəki rolunun qlobal təchizat zənciri, o cümlədən "Bir kəmər, bir yol" təşəbbüsü, Orta Dəhliz üçün həlledici əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edilib ki, Azərbaycan Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilməklə, beynəlxalq nəqliyyat dəhlizlərinin modernləşdirilməsində də fəal rol oynayır, müasir infrastrukturlar qurur, bu infrastruktur quruculuğu və modernləşmə Orta Dəhlizin daşınma qabiliyyətinin güclənməsinə xidmət edir. 2025-ci ildə Orta Dəhliz vasitəsilə yükdaşımalar 11 faiz, Şimal-Cənub dəhlizi üzrə isə 12 faiz artıb. Bakı-Tbilisi-Qars dəmir yolunun modernləşdirilməsi nəticəsində illik ötürücülük qabiliyyəti 5 milyon tona çatdırılıb, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının gücü daha da artırılıb və 2025-ci ildə Bakı Limanında konteyner aşırılması əvvəlki illə müqayisədə 40 faiz yüksələrək 107 mini keçib. Hazırda Limanın yükötürmə gücünün (TEU) 25 milyon tona çatdırılması istiqamətində işlər davam etdirilir.

S.Şərifov Vaşinqtonda əldə olunan üçtərəfli razılaşmaya əsasən, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) kimi tanınan Zəngəzur dəhlizinin strateji önəmindən bəhs edərək bildirib ki, bu layihə Avropa ilə Mərkəzi Asiya arasında etibarlı quru əlaqəsi yaratmaqla yanaşı, 2040-cı ilə qədər 865 min TEU həcmində yük axınını təmin etmək potensialına malikdir.

Çoxvektorlu nəqliyyat siyasəti Azərbaycanın qlobal platformalarda layiqli yerini möhkəmləndirməklə, bu coğrafiyalarda yer alan ölkələrin əməkdaşlıq və rifahın yeni koordinatlarını müəyyən etməyə, yeni tərəfdaşları inteqrasiyaya cəlb etməyə hesablanıb. Beləliklə, Azərbaycan Orta Dəhliz-Zəngəzur blokunu koordinasiyalı inkişafı sayəsində bir neçə qitəni logistika inteqrasiyasında birləşdirən körpü quruculuğuna töhfə verməkdədir.

## Mərkəzi Asiya-ABŞ-Azərbaycan logistika zənciri

**Zəngəzur dəhlizi (TRIPP) layihəsi Avropa ilə Mərkəzi Asiya arasında etibarlı quru əlaqəsi yaratmaqla yanaşı, 2040-cı ilə qədər 865 min TEU həcmində yük axınını təmin etmək potensialına malikdir**

"Yeni İpək Yolu" Forumunda çıxış edən digər natiqlər nəqliyyat dəhlizlərində tarif siyasəti və sərhəd-keçid məntəqələrinin buraxıcılıq qabiliyyətinin, logistika imkanlarının artırılması, rəqəmsallaşmavə gömrük prosedurlarının harmonizasiyası istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsi, Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələri arasında koordinasiyanın qurulması sahəsində birgə fəaliyyətin zəruriliyinə toxunublar.

Azərbaycanın da strateji mövqe tutduğu Orta Dəhlizin Yeni İpək Yolunun əsas arteriyalarından birinə çevrildiyinə diqqət çəkən Qırğızıstan baş nazirinin birinci müavini Daniyar Amangeldiyev müasir geosiyasi vəziyyətlər fonunda yük daşınmasının pozulmasının qarşısını almaq üçün Avrasiya xətlərinin əhəmiyyətini vurğulayıb. Orta Asiya ölkələrinin qlobal nəqliyyat zəncirlərinə qoşulmasında fəal rol oynamasına toxunaraq Avrasiya bölgəsində və digər regionlarda çoxqütblü kommunikasiya xətlərinin rifah və inkişafa xidmət etdiyini diqqətə çatdırıb. Qeyd edilib ki, bir müddət əvvəl Bişkekdə Mərkəzi Asiya Ölkələri və ABŞ arasında İqtisadi Əməkdaşlığın Gücləndirilməsi üzrə "B5+1" modeli yaradılıb ki, bu format beynəlxalq kommunikasiyalara inteqrasiyanın bir hissəsidir. Qırğızıstanın iqtisadiyyat və ticarət naziri Bakıt Sıdıkov yeni əməkdaşlıq formatlarının regional əməkdaşlığın keyfiyyətcə yeni bir mərhələsini təmsil etdiyini və bu mərhələdə biznesin iqtisadi transformasiyanın əsas hərəkətverici qüvvəsinə çevrildiyini vurğulayıb.

Göründüyü kimi, Azərbaycanın əsas oyuncu və mərkəzi coğrafiya olduğu Orta Dəhlizin vahid nəqliyyat arteriyası formalaşmaqdadır. Dəhlizin növbəti dayanacağı Zəngəzur xətti olacaq ki, nəticədə Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsi tam təmin ediləcək. İkitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığın simvoluna çevrilən Orta Dəhlizdə Azərbaycan müasir geoiqtisadi və geosiyasi platformalarda yerini və mövqeyini daha da gücləndirəcək.

***E.CƏFƏRLİ***

# "Fitch" SOCAR-ın reytinqini müsbət qiymətləndirib




Beynəlxalq reytinq agentliyi "Fitch Ratings" korporativ reytinq meyarlarını və sahə naviqatorlarını yenilədikdən sonra Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) daxil olmaqla 11 neft-qaz şirkətinin kredit reytinqlərini təsdiqləyib. Reytinqləri təsdiqlənən şirkətlər sırasına "QatarEnergy", "Saudi Aramco", bp, OMV, "Repsol", EDO, OQ, "KazMunayGas", "Romgaz" və "Uzbekneftegaz" da daxildir.

"Fitch" SOCAR-ın müstəqil kredit profilini Korporativ Reytinq Alətindən istifadə etməklə qiymətləndirib. Təhlilin nəticələrinə əsasən, SOCAR-ın reytinqi " BB" səviyyəsində müəyyən edilib. Şirkətin idarəetmə üzrə reytinqi "BB", sahə xüsusiyyətləri üzrə "BB+", bazar və rəqabət mövqeyi "BBB-", şaxələndirmə və aktivlərin keyfiyyəti "BB+", əməliyyat xüsusiyyətləri "BB", mənfəətlilik "BBB" reytinq balı əsasında təyin olunub. "Fitch" SOCAR-ın korporativ idarəetməsini "yaxşı", əməliyyat mühitini isə "BB" səviyyəsində qiymətləndirib. Hər iki göstərici reytinq üzrə əlavə düzəlişə səbəb olmayıb.




## "Yaşıl istiqraz" buraxılışında nüfuzlu investor

SOCAR-ın reytinqin artmasında qlobal neft təminatçısı kimi rolu ilə yanaşı, idaretmə və maliyyə bazarlarındakı korporativ fəaliyyəti də mühüm əhəmiyyət kəsb edir. Şirkət bir neçə ildir ki, emissiya etdiyi "yaşıl istiqraz"larla kapital bazarlarında investor kimi tanınır. "Yaşıl istiqrazlar" maliyyə sektorunda davamlılığı təşviq etmək, iqlimlə əlaqəli və ya digər növ xüsusi ekoloji layihələri dəstəkləmək və sosial və ətraf mühitin yaxşılaşdırılmasına töhfə vermək baxımından daha cəlbedicidir. Ekoloji və iqlim layihələrini dəstəkləmək üçün sabit gəlirli bir maliyyə aləti olan "yaşıl istiqraz" enerji səmərəliliyi, ekoloji çirklənmə ilə mübarizədə öz səmərəsini verməkdədir. Avropa Birliyi ölkələrindən Finlandiya, İsveçrə, Estoniya, Niderland, İrlandiya, Norveç və digərləri  davamlı kənd təsərrüfatı, ekosistemlərin qorunması, təmiz nəqliyyat, davamlı su idarəçiliyinə yönəlmiş layihələri bu qiymətli kağız vasitəsilə maliyyələşdirir.

Bu baxımdan SOCAR-ın "yaşıl istiqraz"ları kapital bazarlarında şirkətin strateji mövqeyini daha da möhkəmləndirməklə bərabər, SOCAR-ın ekoloji dəyərlərə sadiqliyini və dayanıqlı inkişaf prioritetlərini də özündə əks etdirir.

Şirkətin bazarda flaqman olaraq ilk yaşıl cığır açması investorların bu maliyyə alətlərinə marağını stimullaşdıracaq.

SOCAR-ın reytinqinin artmasında beynəlxalq şirkət kimi aktiv fəaliyyəti də mühüm rol oynamaqdadır. Azərbaycanın milli neft korporasiyası xarici ölkələrdə müasir təchizat və idarəetmə sistemləri qurmaqla qlobal investor kimi özünü təsdiqləyir. Azərbaycan Dövlət Neft Şirkəti bir çox ölkənin nüfuzlu enerji şirkətləri ilə sazişlər imzalayıb ki, həmin sənədlərin əsas məzmunu yeni idarəetmə texnologiyalarının tətbiqini nəzərdə tutur. Neft Şirkəti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Emirates National Oil Company Group" ("ENOC Group") arasında kəşfiyyat, hasilat, rəqəmsallaşma, ticarət, marketinq istiqamətlərində əməkdaşlığın qurulması, BƏƏ-nin "Dragon Oil" şirkəti arasında imzalanan anlaşma memorandumuna

## Mərkəzi Asiya-Körfəz regionu ölkələri ilə

əsasən, birgə neft-qaz hasilatında yer alması, eləcə də "Crescent Petroleum" şirkəti ilə enerji sektorunun müxtəlif istiqamətləri üzrə tərəfdaşlıq qlobal etimadın nümunəsidir. SOCAR-ın Misirin Dövlət Neft Şirkəti ilə əməkdaşlığı da bölgənin enerji təchizatı və şaxələnməsi üçün əhəmiyyət daşımaqla, qlobal nüfuzun bir göstəricisidir.

SOCAR Mərkəzi Asiya bölgəsində də hasilat zonalarında aktiv investor kimi tanınır. 2025-ci ilin oktyabrında Qazaxıstanın "Samruk Kazına Azərbaycan İnvestisiya Holdinqi İnvestisiya Fondu MMC" ilə Azərbaycanın Dövlət Neft Şirkəti (SOCAR) arasında birgə investisiya mexanizminin təsis edilməsi üçün Çərçivə Sazişi" imzalanıb. Bu sənəd də beynəlxalq tərəfdaşlığın bir hissəsidir.

Həmçinin, SOCAR ilə Özbəkistanın "Uzbekneftegaz" Səhmdar Cəmiyyəti arasında neft-qaz sənayesində yeni innovasiyaların və ağıllı idarətmənin tətbiq olunması sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə dair anlaşma memorandumu imzalanıb.

**Azərbaycanın milli neft korporasiyası xarici ölkələrdə müasir təchizat və idarətmə sistemləri qurmaqla qlobal investor kimi özünü təsdiqləyir. Azərbaycan Dövlət Neft Şirkəti bir çox ölkənin nüfuzlu enerji şirkətləri ilə sazişlər imzalayıb ki, həmin sənədlərin əsas məzmunu yeni idarəetmə texnologiyalarının tətbiqini nəzərdə tutur**

**Şirkətin törəmə müəssisəsi olan "SOCAR Green" bərpaolunan enerji mənbələri ilə bağlı layihələrdə öz tərəfdaşları ilə "yaşıl kapital"ın cəlb olunması və idarə edilməsində nümunəvi model qurub. Bu fəaliyyət də beynəlxalq reytinqin yüksəldilməsində mühüm amillərdən biridir**

## ABŞ və İsraillə birgə sərmayə tərəfdaşlığı

Dövlət Neft Şirkətinin Xəzərdə ən modern emal texnologiyalarını tətbiq etməsində yaxın tərəfdaşlarından biri ABŞ-dır. SOCAR və ABŞ-ın SLB şirkəti arasında əldə edilmiş razılığa əsasən, Xəzərin Azərbaycan sektorundakı "Bahar" və "Qum-Dəniz" yataqlarının yenidən işlənməsinə start verilib. Bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyən edilməsini, hərtərəfli rezervuar modelləşdirməsinin hazırlanmasını və bu yataqlarda erkən hasilat sxemini (EPS) dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur.

25 il müddətinə nəzərdə tutulan müqavilənin investisiya portfeli 1 milyard dollar həcmində qiymətləndirilir. Müqavilə blokunda qaz ehtiyatları 25 milyard kubmetr təşkil edən yatağın işlənməsi SOCAR-ın neft hasilatının artmasına və uzunmüddətli strategiyasına mühüm töhfə verəcək.

Azərbaycan Dövlət Neft Şirkəti ilə İsrailin "Union Energy" şirkəti arasında Aralıq dənizi hövzəsindəki ən iri qaz yataqlardan biri olan "Tamar" layihəsi üzrə 10 faiz payın əldə edilməsinə dair sazişin imzalanması da mühüm qlobal dəyərin rəmzlərindən biridir. Bu sazişə əsasən, SOCAR İsrailin təbii qaz bazarına çıxış imkanı qazanıb. Azərbaycan bu perspektivli qaz blokunda investor və enerji tədarükçüsü statusu qazanmaqla Aralıq dənizi regionunda potensial enerji təchizatçına çevriləcək.

## "Yaşıl enerji"də etibarlı şirkət

Dövlət Neft Şirkəti "yaşıl enerji" sektorunda da etibarlı tərəfdaş kimi qlobal sektorda etimad ünvanlarından birinə çevrilir. Şirkətin törəmə müəssisəsi olan "SOCAR Green" bərpaolunan enerji mənbələri ilə bağlı layihələrdə öz tərəfdaşları ilə "yaşıl kapital"ın cəlb olunması və idarə edilməsində nümunəvi model qurub. Bu fəaliyyət də beynəlxalq reytinqin yüksəldilməsində mühüm amillərdən biridir. Məhz bu amili nəzərə alan "Moody's" beynəlxalq reytinq agentliyi ötən il Azərbaycanı iqlim dəyişikliyi ilə mübarizə sahəsində təsirli addımlar atan ölkələrdən biri kimi dəyərləndirib və yeni reytiniqdə bu faktoru da nəzərə alıb.

"Yaşıl enerji" strategiyasının reallaşmasında Avropa və Asiyanın nəhəng investorları ilə anlaşma sənədlərinə imza atan SOCAR-ın nailiyyətləri də bu müsbət nəticənin bir hissəsidir. SOCAR və bp arasında Cəbrayıl rayonunda "Şəfəq" layihəsinin icrasına dair saziş imzalanıb, qlobal investorlar - "Fortescue Future Industries", "China Gezhouba Group", "Total Energies", "Nobel Energy", "Czech Engineering", "Baltech" və digər şirkətlərlə bərpa olunan enerji layihələri ilə bağlı əməkdaşlığa başlanılıb.

***E.CƏFƏRLİ***

# Ölməzliyin adı: Mübariz İbrahimov

## Vətən üçün yaşamaq da, ölmək də şərəfdir...

Vətən elə bir müqəddəs anlayışdır ki, onun yolunda canını fəda edənlər zamanın fövqünə qalxır, adları tarixə deyil, xalqın ürəyinə yazılır. Mübariz İbrahimov da məhz belə oğullarımızdandır. Uzun illər işğal altında qalan torpaqlarımızın həsrəti hər bir azərbaycanlının ürəyində köz kimi yanıb. Bəziləri bu həsrəti sözlə ifadə edirdi, bəziləri isə sükutla yaşayırdı. Mübariz isə bu ağrını əmələ çevirdi. O, Vətənin çağırışını eşitdi və tərəddüd etmədən cavab verdi. Təkbaşına düşmən mövqelərinə doğru atdığı addım əslində milyonların ürəyindən keçən bir hayqırtı idi...

Mübariz İbrahimov ölümün üzərinə qorxmadan gedərkən, həyatın mənasını Vətəndə tapmışdı. Onun şəhidliyi sübut etdi ki, Azərbaycan əsgəri ruhən yenilməzdir, torpaq sevgisi hər cür silahdan güclüdür.

Bu gün Milli Qəhrəmanımızın anadan olmasından 38 il ötür. 1988-ci il fevralın 7-də doğulan qəhrəmanımız Qarabağ müharibəsi ilə həmyaşıd idi. Qəhrəmanlıq ənənələri ruhunda böyüyən Mübariz orta təhsilini şəhid Malik Piriyev adına Əliabad kənd orta məktəbində alıb. 2006-cı ilin yazında həqiqi hərbi xidmətə çağrılan gənc Mübariz Daxili Qoşunların “N” saylı hissəsinin xüsusi təyinatlı bölüyündə atıcı əsgər olub, həqiqi hərbi xidmətini çavuş rütbəsində başa vurub. 2009-cu ildə yenidən, bu dəfə gizir kimi orduda xidmətə başlayıb. Çox keçmədən öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birinə xidmətə göndərilib.



### Sonuncu məktub...

2010-cu il iyunun 18-dən 19-a keçən gecə Tərtər rayonunun Çaylı kəndi yaxınlığında 22 yaşlı gizir Mübariz İbrahimov döyüş növbəsində olduğu vaxt düşmən tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində başlanan atışmada şəxsi rəşadət nümayiş etdirir. Təkbaşına təmas xəttinin bir kilometrlik minalanmış sahəsini keçir. Qəfil həmləsi ilə Ermənistan ordusunun çox sayda əsgər və zabitini məhv edir. Sonra isə düşmənin öz silahlarından onun özünə qarşı istifadə edərək 5 saat təkbətək döyüşür. Düşməni çox ağır itkilərə məruz qoyur. Azərbaycan döyüşçüsü səhərə yaxın qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olur.

Bu sətirlər Mübarizin evlərinə göndərdiyi son məktubundandır: “Canım atam və anam. Məndən sarı darıxmayın. İnşallah, cənnətdə görüşəcəyik. Mənim üçün bol-bol dua edin. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək düşmənin üzərinə gedəcəyəm. Şəhid olsam - ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim... Vətən sağ olsun. Oğlunuz Mübariz. Haqqınızı halal edin”.

Bu gün Mübariz İbrahimovun ruhu şaddır. Çünki onun da qəhrəmanlığından ilham alan igid oğullarımız 2020-ci ilin 44 günlük Vətən müharibəsində torpaqlarımızı düşməndən azad edərək şanlı Qələbə qazandılar.

Prezident İlham Əliyevin 22 iyul 2010-cu il tarixli Sərəncamı ilə gizir Mübariz İbrahimova ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilib, “Qızıl Ulduz” medalı, “Vətən övladı” qızıl ordeni ilə təltif edilib. O, həmçinin Azərbaycanda ilin adamı mükafatına layiq görülüb. İgid Mübarizin düşmən tərəfdə qalmış nəşi bir müddət sonra Ali Baş Komandanın qətiyyətli səyləri sayəsində alınaraq doğma Vətənə gətirilib.

### Mübarizin şücaətinə verilmiş layiqli qiymət

Prezident İlham Əliyev qəhrəmanla vida mərasimindəki nitqində onun əbədiyyət yolçuluğunu yüksək qiymətləndirib: “Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir... Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi qəhrəmanlar var... Azərbaycan Ordusu Cənubi Qafqazda ən qüdrətli, ən peşəkar, ən mübariz ordudur və şəhidlərimizin qəhrəmanlığı bunu bir daha sübut edir”.

### Ziyarətgaha çevrilmiş ev...

Milli Qəhrəmanın xatirəsinin əbədiləşdirilməsi məqsədilə doğulub boya-başa çatdığı Biləsuvar rayonunda lisey kompleksinə və küçələrdən birinə onun adı verilib.

15 ilə yaxındır ki, Əliabad kəndini Mübarizin kəndi adlandırırlar. Milli Qəhrəmanın ata evinin həyətində onun ev-muzeyi tikilib. Bura gələn hər kəs ondan xatirə qalmış əşyalarla, fotoguşəylə tanış olur, qəhrəmanın əziz xatirəsinə sonsuz ehtiramını bildirir.

M.İbrahimov həm ölkəmizdə, həm də ölkəmizin hüdudlarından kənarda qəhrəmanlıq, şücaət rəmzinə çevrildi. Qəhrəmanımız qısa ömür yaşasa da canını Vətən yolunda fəda etməsi ilə gənclərə örnək olacaq şanlı bir yol və ad-san qoyub getdi. Bizlər üçün Mübariz ölməyib. Hər bir şəhidimiz kimi Mübariz İbrahimov da əbədiyaşardır.

O gecə Mübariz yalnız səngəri deyil, qorxu divarını da yarıb keçdi. Onun şəhidliyi xalqımızın özünə inamını geri qaytardı. Mübariz adı bir anda cəsarətin, qeyrətin, mərdliyin sinoniminə çevrildi. Analara oğul, gənclərə örnək oldu. O göstərdi ki, Vətən üçün yaşamaq da, ölmək də şərəfdir.

Bu gün Mübariz İbrahimov aramızda fiziki olaraq olmasa da, ruhu səngərlərdə keşik çəkir, azad edilən torpaqlarda dalğalanan bayrağımızda yaşayır. O, bir xalqın vicdanıdır və xalq öz igid oğlunu heç vaxt unutmayacaq.

*Çünki Mübariz ölmədi.*
*Mübariz ad oldu.*
*Mübariz tarix oldu...!*

**Yeganə BAYRAMOVA**

# 5 aydan sonra...

## Əbu-Dabi görüşünün real nəticəsi: 314 əsir vətəninə qayıtdı

Rusiya ilə Ukrayna arasında 4 ildir ki, davam edən müharibənin yekunlaşması ilə bağlı növbəti danışıqlar prosesi Əbu-Dabidə reallaşıb. Budəfəki görüşün heyəti dəyişməyib - yanvar ayında keçirilən görüşdə olduğu kimi, Ukrayna nümayəndə heyətinə Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov, ABŞ nümayəndə heyətinə Stiv Vitkoff, Rusiya nümayəndə heyətinə isə Baş Qərargahın (BQQ) Baş İdarəsinin rəisi İqor Kostyukov rəhbərlik edib. Görüş iki gün davam edib və müzakirələr qapalı qapılar arxasında keçirilib.

Görüşün mahiyyətinə keçməmişdən əvvəl vurğulamaq lazımdır ki, beynəlxalq mətbuat danışıqlardakı atmosferin əvvəlki görüşlərdən fərqləndiyini, nisbətən daha işgüzar olduğunu bildirib. Baxmayaraq ki, nümayəndə heyətləri arasında fikir ayrılıqları mövcud olub, iqtisadi aspektləri, ərazi məsələləri və atəşkəs mexanizmi müzakirə olunub.

**Rusiyalı əsirlər Belarusda...**

Görüş özündən əvvəlkilərdən bir sıra yenilikləri ilə seçilib. Belə ki, görüşün ilk günündə Moskva və Kiyev 5 aydan sonra ilk dəfə əsir mübadiləsi aparmaq barədə razılığa gəliblər. Rusiya Müdafiə Nazirliyi mübadiləni “157-yə 157” formuluna uyğun olaraq aparıldığını elan edib. Müdafiə Nazirliyi bildirib ki, Rusiya Ukrayna əsirliyindən 157 hərbçini geri qaytarıb və 157 ukraynalı hərbi əsir mübadilə yolu ilə təhvil verilib. Bəyanatda deyilir ki, əsirlikdən qayıdan rus əsgərləri Belarus ərazisindədir və onlara “yardım göstərilir”. Rusiya Müdafiə Nazirliyi əlavə edib ki, BƏƏ Rusiya hərbçilərinin əsirlikdən qaytarılmasında vasitəçi kimi çıxış edib.

Qeyd edək ki, 2025-ci ildə mübadilə nəticəsində 1800-dən çox Rusiya hərbçisi Ukrayna əsirliyindən qaytarılıb. Prezident Vladimir Putin BƏƏ-nin Rusiya ilə Ukrayna arasında əsir mübadiləsinə verdiyi töhfəni yüksək qiymətləndirib.

**150 ukraynalı hərbçi və 7 mülki şəxs...**

Azad edilən 139 Ukrayna vətəndaşı 2022-ci ildən bəri Rusiya əsirliyində olub. Bu barədə Ukrayna Prezidenti Volodimir Zelenski “Telegram”da bildirib. Rusiya əsirliyindən yüz əlli hərbçi və yeddi ukraynalı mülki şəxs azad edilib. Onların arasında yaralı əsgərlər də var. Qaytarılmış əsirlər Luqansk, Donetsk, Xarkov, Zaporojye, Xerson, Sumı və Kiyev sektorlarındakı döyüşlərdə iştirak ediblər. Azad edilənlərin yarıdan çoxu Mariupolun müdafiəsi zamanı əsir götürülüb.

Zelenski həmçinin Ukrayna, ABŞ və Rusiyanın Əbu-Dabidə üçtərəfli danışıqlarının daha bir mərhələsini keçirmək barədə razılığa gəldiyini təsdiqləyib. O, son görüşün təfərrüatlarını “həssas” adlandırıb və onları daha sonra açıqlayacağına deyib. O, növbəti

**Görüşlər davam edəcək**



görüşün ABŞ-da baştutma ehtimalını istisna etməyib.

Ukrayna Prezidentinin Ofisinin rəhbəri Kirilo Budanov isə danışıqları “konstruktiv” adlandırıb. “Danışıqlar həqiqətən konstruktiv keçdi. Əla təşkilatçılığına və vasitəçiliyinə görə ABŞ və BƏƏ-yə minnətdaram”, - Budanov qeyd edib.

**Qarşıdakı həftələrdə Vaşinqtonda...**

ABŞ Prezidentinin xüsusi elçisi Stiv Vitkoff da Əbu-Dabidə keçirilən görüşü konstruktiv adlandırıb: “4 və 5 fevral tarixlərində ABŞ, Ukrayna və Rusiya Federasiyasından olan nümayəndə heyətləri Ukraynadakı münaqişəyə son qoymaq səylərinin bir hissəsi olaraq Əbu-Dabidə ikinci üçtərəfli görüş keçiriblər. Danışıqlar konstruktiv olub və davamlı sülh üçün şəraitin yaradılmasına yönəlib”, Vitkoff X sosial media platformasında yazıb.

Tərəflər, xüsusən də atəşkəs vəziyyətində tətbiq üsulları və hərbi əməliyyatların dayandırılmasına riayət olunmasının monitorinqini müzakirə ediblər. Xüsusi elçi əsir mübadiləsinə diqqət çəkərək bildirib ki, bu, 5 ay ərzində ilk belə mübadilədir. O qeyd edib ki, dialoq davam edəcək və qarşıdakı həftələrdə daha yaxşı irəliləyişlər gözlənilir.

Onun sözlərinə görə, nümayəndə heyətləri danışıqların nəticələrini paytaxtlarına bildirmək və qarşıdakı həftələrdə üçtərəfli müzakirələri davam etdirmək barədə razılığa gəliblər. Xüsusi elçi vurğulayıb ki, Rusiya və Amerika hərbçiləri arasında yüksək səviyyəli dialoqun bərpası sülhə nail olmaq üçün çox vacibdir. “Amerika Birləşmiş Ştatları və Rusiya həmçinin ABŞ-ın Avropa Komandanlığının komandanı, general Aleksus Qrinkeviçin rəhbərliyi altında hərbi dialoq qurmaq barədə razılığa gəliblər. Bu təmaslar münaqişədən əvvəl dayandırılıb və sülhün əldə edilməsi və qorunması üçün davam etdirilməsi vacibdir”, - deyə Vitkoff qeyd edib.

Qeyd edək ki, həm Vitkoffun, həm də Ukrayna nümayəndə heyətinin rəhbəri Rüstəm Umerovun qısa yekun açıqlamalarında, növbəti üçtərəfli görüşün növbəti bir neçə həftə ərzində baş tuta biləcəyi vurğulanır. Umerov görüşün məhsuldar, konkret addımlara və praktik həllərə yönəldiyini bildirib.

**Odessaya zəmanət...**

Xarici mətbuat Əbu-Dabidəki danışıqlarda Ukraynanın sülh müqaviləsinin bir hissəsi olaraq Odessa üçün təhlükəsizlik zəmanətləri tələb etdiyini yazıb. Bildirilib ki, Odessa üçün zəmanətlər Ukrayna tərəfi üçün ciddi aspektdir. Xatırladaq ki, The Wall Street Journal (WSJ) yanvarın əvvəlində Odessanın enerji sisteminə edilən hücumlar səbəbindən şəhərin mühasirədə olduğunu bildirmişdi. Qəzet qeyd edirdi ki, Ukraynanın əsas iqtisadi və taxıl mərkəzi olan Odessa elektrik enerjisi idxalından asılılığı səbəbindən enerji sisteminə edilən hücumlara qarşı olduqca həssasdır.

Ukrayna İcmalar və Ərazilər Nazirliyinin məlumatına görə, ölkənin kənd təsərrüfatı məhsullarının təxminən 90 faizi dəniz yolu ilə ixrac olunur. Nazirlik hesablamalarına görə, 2025-ci ilin ilk 11 ayında Odessa bölgəsindəki 6 limandan təxminən 76 milyon ton yük daşındığı təxmin edir. WSJ qeyd edir ki, əgər Odessa vasitəsilə Ukrayna taxılının ixracı dayandırılarsa, bu, Ukraynaya əlavə zərbə ola bilər. Rusiya Müdafiə Nazirliyi isə bildirib ki, zərbələr yalnız Ukraynanın hərbi və enerji obyektlərini və əlaqəli infrastrukturu hədəf alır.

**SADİQ**

# “Starlink”in bloklanması Rusiyanın hücum tempini zəiflədəcək

“Starlink”in Rusiyada bloklanmasının Rusiya-Ukrayna müharibəsinin gedişinə ciddi təsir edəcəyinə dair müxtəlif fikirlər mövcuddur.

AZƏRTAC xəbər verir ki, ABŞ-ın Müharibə Tədqiqatları İnstitutunun (ISW) hesabatına görə, “Starlink”in bloklanması rusları Ukrayna logistikasına hücumlarını yavaşlatmağa məcbur edəcək. Bu, Donetskin Pokrovski şəhəri istiqamətində Rusiya bölmələri tərəfindən ən güclü şəkildə hiss ediləcək.

Analitiklər qeyd edirlər ki, Ukraynanın Rusiya üçün “Starlink” terminallarını bloklamaq səyləri Rusiyanın döyüş meydanını hava qüvvələrindən təcrid etmək cəhdlərinə təsirsiz ötüşməyəcək.

Bir neçə rus hərbi blogeri Rusiya qüvvələrinin artıq terminallardan istifadə edə bilməməsindən şikayətlənib və “Starlink” imkanlarının itirilməsinin döyüş meydanında yarada biləcəyi nəticələrdən narahatlığını bildirib.



Ukrayna Pilotsuz Sistemlər Briqadasının komandiri fevralın 5-də deyib ki, Rusiya qoşunları bu yaxınlarda xeyli sayda “Starlink” terminalı toplayıb və bu terminallar onlara bölmələr arasında sabit rabitə təmin edib.

Komandir bildirib ki, “Starlink” terminallarının bloklanması Rusiyanı kəşfiyyat və zərbə missiyaları aparmaq, qruplar arasında rabitəni saxlamaq imkanından məhrum edəcək və hücum əməliyyatlarını çətinləşdirəcək.

Müharibə Tədqiqatları İnstitutu isə hesab edir ki, “Starlink” terminalları olmadan Rusiya qüvvələri son həftələrdəki kimi döyüş meydanında eyni tempdə və dərinlikdə aktiv əməliyyat apara bilməyəcək.

Xatırladaq ki, yanvar ayında rusların Ukraynanın hava hücumundan müdafiə sistemlərindən yayınmaq üçün “Starlink” dəstəkli dronlardan getdikcə daha çox istifadə etdikləri barədə məlumatlar ortaya çıxdı.

Bundan sonra Ukraynanın müdafiə naziri Mixaylo Fedorov Müdafiə Nazirliyinin məsələni həll etmək üçün dərhal “SpaceX” ilə əlaqə saxladığını bildirib.

Fedorov, həmçinin Ukraynada yalnız icazə verilən “Starlink” terminallarının fəaliyyət göstərəcəyini açıqlayıb.

# Pakistanda antiterror əməliyyatı: 24 silahlı zərərsizləşdirilib

Pakistanın şimal-qərbində yerləşən Xayber-Paxtunxva əyalətində həyata keçirilən iki əməliyyat nəticəsində azı 24 silahlı öldürülüb.



AZƏRTAC xəbər verir ki, Pakistanın təhlükəsizlik xidmətindən verilən məlumata görə, Orakzay dairəsində keçirilən əməliyyat zamanı 14 silahlı, Xayber bölgəsində keçirilən digər əməliyyat zamanı isə 10 silahlı zərərsizləşdirilib.

Hazırda təhlükəsizlik qüvvələrinin əməliyyatı davam edir, sağ qalan silahlılar təqib olunur.

# Fransanın müstəmləkə siyasəti davam edir

## Kanaki və Mayotda əhali sürətlə azalır, insanların sosial durumu pisləşir

Bu gün özünü müasir və demokratik dövlət kimi təqdim etməyə çalışan Fransanın, əslində, tarixən müxtəlif xalqlara qarşı müstəmləkəçilik siyasəti həyata keçirdiyi bütün dünyaya məlumdur. Fransa bir sıra xalqları hələ də öz müstəmləkəsi altında saxlayır. Bu dövlətin müstəmləkəçilik siyasətinin tarixi yüz illərə gedib çıxır.

### Kolonializm siyasəti Fransa üçün xarakterikdir

Bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal altına alan, sərvətlərini talan edən, xalqlarını uzun illər ərzində əsarətdə saxlayan Fransa həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törədib, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyub. Bütövlükdə, Fransanın müstəmləkəçilik siyasəti həmin xalqlara yaxşı heç nə gətirməyib. Onlar sivilizasiyadan geri qalıblar, sərvətləri talanıb Fransaya daşınan ölkələr asılı vəziyyətə düşüb, diskriminasiya nəticəsində yerli xalqlar milli kimliklərini itirmək təhlükəsi ilə üzləşiblər.

Hazırda süni intellekt və rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi, qlobal iqtisadiyyatın yeni texnoloji mərhələyə qədəm qoyduğu bir dövrdə Fransa müstəmləkə ərazilərini istismar etmək və yerli əhalini hüquq və zor aparatı vasitəsilə nəzarətdə saxlamaq siyasətini davam etdirir, yerli əhalini



doğma torpaqlarını tərk etməyə məcbur edir.

Bakı Təşəbbüs Qrupundan verilən məlumata görə, 2019 və 2025-ci illər üzrə yerli kanak əhalisinin siyahıyaalma nəticələri Kanakidə (Yeni Kaledoniya) sistemli və dərinləşən demoqrafik tənəzzülün yaşandığı açıq şəkildə ortaya qoyur. 2019-cu ildə ərazinin daimi əhalisi 271 min 407 nəfər təşkil etdiyi halda, 2025-ci ildə bu göstərici 264 min 596 nəfərə enib. Son altı il ərzində Kanakidə əhali sayında 6811 nəfərlik azalma qeydə alınıb. Bu geriləmə təxminən 2,5 faiz demoqrafik azalmaya bərabər olmaqla, hər il orta hesabla 1200-dən artıq şəxsin Yeni Kaledoniyanı tərk etməsi ilə xarakterizə olunur və son 75 il ərzində ilk dəfə müşahidə edilən demoqrafik tənəzzül kimi qiymətləndirilir.

Statistik məlumatlara əsasən, Kanakinin Fransa tərəfindən məqsədli şəkildə sosial-iqtisadi inkişafdan kənarda saxlanılması, təhsil və məşğulluq imkanlarının məhdudlaşdırılması, yerli əhali üçün sabit gələcək perspektivlərinin qeyri-müəyyənliyi, sosial-iqtisadi vəziyyətin getdikcə pisləşməsi, səhiyyə və ictimai xidmətlərə əlçatanlığın məhdudluğu, ədalətli məhkəmə sisteminin mövcud olmaması, eləcə də Metropoldan (Fransadan) qeyri-qanuni göstərişlər alan hüquq-mühafizə orqanlarının sərt, repressiv və ayrı-seçkilik yaradan davranışları, təhlükəsizlik mühitinin pisləşməsi və siyasi, iqtisadi, sosial hüquqların ardıcıl və sistemli şəkildə məhdudlaşdırılması, Kanaki əhalisi arasında kütləvi miqrasiya meyillərinin güclənməsinin əsas səbəblərindən hesab olunur.

### Gənclər Kanakini tərk etməyə məcbur olur

Kanaki əhalisinin ərazini tərk etməsi ilə paralel olaraq ümumi əhali strukturunda yaşlanma prosesi sürətlənir, uşaq və gənc əhalinin sayı isə azalır ki, bu da demoqrafik geriləmənin daha qabarıq və kəskin şəkildə görünməsinə gətirib çıxarır. Qeyd edək ki, Fransa tərəfindən Kanak gənclərin, xüsusilə siyasi və iqtisadi baxımdan aktiv əhalinin kütləvi şəkildə digər ölkələrə məqsədyönlü köçürülmə siyasəti yerli müstəqillik hərəkatlarının gücünün zəifləməsinə, Yeni Kaledoniyada Kanak əhalisinin nisbətinin azaldılmasına, eyni zamanda, metropoldan gələn avropalı və digər miqrantların sayının artırılmasına və nəhayət uzunmüddətli perspektivdə referendumlar və yerli əhali tərəfindən müstəqillik tələblərinin zəifləməsinə yönəlib.

Gənc, təhsilli və perspektivli şəxslərin Kanakini tərk etməsi yerli iqtisadi inkişafın ləngiməsinə səbəb olur. Bu proses Yeni Kaledoniya və digər müstəmləkə ərazilərinin Fransaya iqtisadi asılılığını artırır, xüsusilə subsidiyalar, investisiyalar və idxal asılılığı vasitəsilə maliyyə və resurs baxımından metropola bağlılıq dərinləşir. Eyni zamanda, fransız şirkətləri, xüsusilə nikel sektorunda fəaliyyət göstərən korporasiyalar yerli əmək qüvvəsindəki azalmanı Fransadan gələn işçilər və ya digər xarici miqrantlar hesabına kompensasiya edə bilirlər. Fransa hökuməti bu siyasət vasitəsilə daxili siyasətindəki çatışmazlıqları və uğursuzluqları örtbasdır etməyə çalışır.

### Mayot xalqına verilən vədlər yerinə yetirilməyib

2024-cü ildə Çido qasırğasının ağır zərbəsi ilə üzləşən Mayot xalqına Fransa Prezidenti Emmanuel Makron və digər yüksəksəviyyəli rəsmilər tərəfindən verilmiş yenidənqurma və inkişaf vədləri hələ də yerinə yetirilməyib. Dənizaşırı ərazilər naziri Naima Mutçu 2026-cı il 22 yanvar tarixində Fransanın Mayot üçün 674 milyon avrodan artıq maliyyə öhdəliyi götürdüyünü və bunun əhəmiyyətli hissəsinin xüsusi büdcə sətri ilə təmin olunacağını bəyan edib. Buna baxmayaraq, Fransa Milli Assambleyası tərəfindən 2026-cı il fevralın 2-də qəbul edilmiş büdcədə Mayotun yenidən qurulması üçün heç bir xüsusi büdcə sətri və ayrılmış vəsait nəzərdə tutulmayıb.

Nəticədə Fransa rəhbərliyi adanın ağır fəlakət sonrası vəziyyətinə qarşı laqeyd münasibətini davam etdirərək, verilmiş vədləri yalnız formal sənədlər səviyyəsində saxlayıb və Mayotun yenidənqurma prosesi maliyyə baxımından qeyri-müəyyən və dəstəksiz qalıb. Bu qərar, Fransanın müstəmləkə əsarətində saxladığı ərazilərə qarşı ardıcıl olaraq nümayiş etdirdiyi laqeyd və yerli əhalinin mövcud vəziyyətdən bezərək doğma torpaqlarını tərk etməsinə istiqamətlənmiş siyasətin bariz nümunəsidir.

*Nardar BAYRAMLI*

# START 4 imzalanacaqmı?

ABŞ ilə Rusiya arasında nüvə silahlarına nəzarət üzrə müqavilənin müddətinin cari il fevralın 5-də bitməsindən sonra beynəlxalq ictimaiyyətin nəzərləri Ağ Evə və Kremlə dikilmişdi. Hamını bir sual düşündürürdü: Müqavilənin müddəti uzadılacaqmı və yaxud oxşar məzmunlu yeni sənəd imzalanacaqmı?

Yaşanan narahatlıq əbəs deyil. Dünya üzrə nüvə arsenalının təxminən 90 faizi bu iki ölkənin əlində cəmləşib. Nüvə silahlarına nəzarət mexanizminin olmaması supergüc nüvə dövlətlərinin nüvə silahlanmasında heç bir məhdudiyyət tanımamaları anlamına gəlir ki, bu da digər dövlətlər və bütövlükdə bəşəriyyət üçün çox ciddi təhdid deməkdir.

### Ağ Evdən yeni START müqaviləsi anonsu

Nüvə silahlarına nəzarət üzrə müqavilə ətrafında Moskva ilə Vaşinqton arasında qalmaqal Rusiya-Ukrayna müharibəsi fonunda yaranıb. 2022-ci ilin avqustunda Kreml ABŞ-ın Ukraynaya dəstəyini əsas gətirməklə özünün hərbi nüvə obyektlərində inspeksiya səfərlərinin keçirilməsi ilə bağlı qarşı tərəfin müraciətini rədd edib. 2023-cü il fevralın 28-də Rusiya Prezidenti Vladimir Putin Strateji Hücum Silahları haqqında müqavilənin qüvvəsinin 2026-cı il fevralın 5-dən dayandırılması barədə fərman imzalayıb. Keçən ilin sentyabrında Putin New START müqaviləsi üzrə yerləşdirilmiş raketlərin məhdudiyyətini daha 1 il uzatmağı təklif edib. Lakin ABŞ-dan rəsmi cavab alınmayıb. Bu ilin yanvarında isə Prezident Donald Tramp müqavilənin müddətinin bitməsi ilə bağlı suala "Əgər bitirsə, bitir. Biz daha yaxşı razılaşma edəcəyik", - deyə cavab verib.

Bu günlərdə isə Vaşinqtondan yeni START müqaviləsi anonsu gəlib. Belə ki, Ağ Evin mətbuat katibi Kerolayn Livitt brifinqdə bildirib ABŞ administrasiyası yeni Strateji Hücum Silahlarının Azaldılması Müqaviləsini əvəz edəcək saziş hazırlamaq üçün Rusiya ilə danışıqları davam etdirməyi planlaşdırır.



"Prezident (ABŞ Prezidenti Donald Tramp) nüvə silahları üzrə mütəxəssislərimizin uzun müddət davam edəcək yeni, təkmilləşdirilmiş və modernləşdirilmiş müqavilə üzərində işləməsini istəyir. ABŞ məhz bunun Rusiya ilə müzakirəsini davam etdirəcək", - deyə Ağ Ev rəsmisi bildirib.

Daha əvvəl Tramp qeyd edib ki, ABŞ yeni Strateji Hücum Silahlarının Azaldılması Müqaviləsinin müəyyən müddəalarını qüvvədə saxlamamalı, əksinə, bu sahədəki tərəfdaşları ilə yeni müqavilə hazırlamalıdır.

İndiyədək Ağ Evdən yeni müqavilənin detalları barədə müəyyən siqnallar da ötürülüb. Vaşinqton Çinin də müqaviləyə qoşulması mövqeyindən çıxış edir. Ağ Evin mətbuata sızan əsaslandırması ondan ibarətdir ki, START müqaviləsi onun tərəfləri olan ABŞ və Rusiyaya müəyyən məhdudiyyətlər qoyur. Çinin üzərində isə belə məhdudiyyətlər yoxdur və bu ölkə nüvə arsenalını sərbəst şəkildə artırır. Hazırda Çinin 500-600 aralığında nüvə başlığının olduğu bildirilir. Proqnozlara görə, istehsal tempi bu sürətlə irəliləsə, Çin 2030-cu ilə qədər arsenalını 1500 başlıq səviyyəsinə çatdıra bilər.

Xatırladaq ki, Moskva ilə Vaşinqton arasında nüvə silahlarına nəzarət üzrə birinci saziş 1991-ci ilin 31 iyulunda SSRİ-nin ilk və sonuncu prezidenti Mixail Qorbaçovla ABŞ-ın ovaxtkı prezidenti Corc Buş (ata) arasında imzalanıb. Bundan sonra məlum hadisələr baş verdi və keçmiş ittifaq dövləti tarixə qovuşdu. Lakin nüvə silahlarına nəzarət məsələsi aktuallığını saxlayırdı. SSRİ-nin süqutundan sonra ölkənin nüvə arsenalı Rusiyanın nəzarətinə keçmişdi. Beləliklə, 1993-cü ilin 3 yanvarında Corc Buş Rusiyanın sabiq prezidenti Boris Yeltsin ilə oxşar məzmunlu müqaviləni - START 2-ni imzalayıb.

START 2 2010-cu ilə qədər qüvvədə olub. Həmin ildə tərəflər müqavilənin yenilənməsinə ehtiyac yarandığı barədə razılığa gəliblər. START 3 və yaxud NEW START adlandırılan yeni müqavilə 2010-cu il aprelin 8-də imzalanıb. Bununla da əvvəlki müqavilələr qüvvəsini itirib. Yeni müqavilə 2011-ci ildə qüvvəyə minib və 2021-ci ildə ABŞ prezidenti Co Bayden vəzifəyə gəldikdən sonra daha 5 il müddətinə uzadılıb.

Razılaşmaya əsasən, Moskva və Vaşinqton 1550-dən çox strateji nüvə başlığı və maksimum 700 uzaq mənzilli raket və bombardmançı təyyarə yerləşdirməyi öhdələrinə götürüblər . START ABŞ və Rusiyanı arsenallarını məhdudlaşdırmağa məcbur edirdi ki, əlavə heddindən çox qitələrarası ballistik raketlərə, sualtı raketlərə və ağır bombardmançı təyyarələrə, döyüş başlıqlarına malik olmasınlar. Müqavilədə limitlərin keçilməsinə qadağa qoyulub. Sənədlə tərəflərdən hər birinin digər tərəfin strateji nüvə obyektlərində bir ildə 18-ə qədər yoxlama aparmaq hüququ tanınıb.

### Özündən sonra kədərli izlər qoyan nüvə sınaqları

Beynəlxalq Nüvə Silahlarının Ləğvi Kampaniyasına ("ICAN") görə, hazırda 9 ölkənin nüvə silahı var. Bunlar Rusiya, ABŞ, Çin, Fransa, Birləşmiş Krallıq, Pakistan, Hindistan, İsrail və Şimali Koreyadır.

Stokholm Sülh Tədqiqatları İnstitutunun (SIPRI) 2024-cü il hesabatına əsasən, ayrı-ayrı nüvə dövlətləri öz nüvə arsenalını modernləşdirməyə davam edir, mövcud silahları təkmilləşdirir və yeni sistemlər üzərində işləyirlər. 2025-ci ilin yanvarına olan məlumata görə, dünyada təxminən 12 min 241 nüvə başlığı var. Onlardan 9614-ü hərbi arsenallarda istifadə üçün hazır vəziyyətdədir. Təxminən 3912 başlıq raketlərə və təyyarələrə yerləşdirilib, qalanları mərkəzi anbarlarda saxlanılır. Həmçinin təxminən 2100 başlıq ballistik raketlər də yüksək döyüş hazırlığı vəziyyətindədir. Mövcud nüvə başlığından 5 500-dən çoxunun Rusiyanın, 5 044-nün isə ABŞ-ın arsenalında olduğu bildirilir.

İndiyədək real hərbi əməliyyatlarda nüvə silahından yalnız 1 dəfə - 1945-ci il avqustun 6-sı və 9-da Yaponiyanın Xirosima və Naqasaki şəhərlərində istifadə olunub. ABŞ təyyarələrinin Yaponiyanı sülhə təhrik etməsi üçün bu dəhşətli silahı tətbiq etməsi nəticəsində 300 min insan həlak olub.

Nüvə sınaqlarının əsası da bu dağıdıcı silahın ilk dəfə icad olunduğu ölkədə - ABŞ-da qoyulub. Məhz bu ölkə 1945-ci il iyulun 16-da Nyu-Meksiko ştatının Alamoqoro səhrasında 20 kilotonluq atom bombasının ilk sınağını keçirib. ABŞ-da son nüvə sınağı isə 23 sentyabr 1992-ci ildə Nevada ştatındakı yeraltı mərkəzdə "Divider" kod adı ilə həyata keçirilib.

Artıq tarixə qovuşmuş Sovet İttifaqı 1949-cu ildən 1991-ci ilə qədər 727 nüvə sınağı keçirib. Rejim dağıldıqdan sonra keçmiş Sovet İttifaqının nüvə arsenalı Rusiyada qalıb. Rəsmi məlumatlara görə, Rusiya 1991-ci ildən indiyədək nüvə partlayış sınağı aparmayıb. SSRİ-nin 1961-ci ildə Novaya Zemlya adalarında sınaqdan keçirdiyi "Çar bombası" indiyədək sınaqdan keçirilən ən güclü nüvə silahı sayılır. Partlayış zamanı təxminən 50 meqaton enerji sərbəst buraxılıb. Bu güc ABŞ-ın Xiroşima və Naqasakiya atdığı bombaların cəmindən 1570 dəfə çox idi. Partlayışın yaratdığı göbələk buludu 70 km hündürlüyə qalxmış, effekt isə 1000 km aralıdakı Finlandiya və Norveçə, hətta Qrenlandiyaya qədər müşahidə edilib.

### Polineziyada baş verənlər

Nüvə sınaqlarının fəsadlarından bəhs edərkən Polineziyada baş verənləri xatırlamamaq mümkün deyil. Yelisey Sarayının burada apardığı nüvə sınaqları Fransanın uzun tarixə malik müstəmləkəçilik siyasətinin daha bir eybəcər forması kimi dəyərləndirilir. Məlumdur ki, Fransa ilk atom sınaqlarını 1959-1966-cı illərdə Əlcəzairin cənubunda, Sahara səhrasında reallaşdırıb. Fransanın Əlcəzair üzərində 132 illik qara müstəmləkəçilik tarixi var (1830-1962). Səkkiz il davam edən (1954-1962) qanlı müstəqillik müharibəsindən sonra Əlcəzair Fransa müstəmləkəçiliyindən qurtulmağa nail olub və bundan sonra Yelisey Sarayı nüvə poliqonlarının yerini dəyişmək məcburiyyətində qalıb. Nüvə sınaqları üçün Polineziyanın mərcan adaları - sivilizasiyadan uzaq Fanqataufa və Mururoaya seçilib.

Ümumilikdə, Paris Fransız Polineziyasında 200-ə yaxın nüvə sınağı keçirib. Əsasən 120 kilotonluq bombalar partladılıb. Fransa hakimiyyəti uzun illər ərzində Polineziyada aparılan sınaqların zərərsiz olduğunu əsaslandırmağa çalışıb. Lakin Amerika və Britaniya alimləri müəyyən ediblər ki, fransızlar sınaqların "zərərsiz" olduğunu iddia edərək ictimaiyyəti aldadıb və radiasiyaya məruz qalma dərəcəsini olduğundan 10 dəfə aşağı qiymətləndiriblər.

Hazırda polineziyalılar Parisdən atom sınaqları nəticəsində sağlamlıqlarına dəyən ziyana görə milyardlarla dollar təzminat tələb edirlər. 1998-ci ildə Fransanın Müdafiə Nazirliyi Polineziya əhalisinin nüvə sınaqlarından əziyyət çəkdiyini rəsmən etiraf edib və 2010-cu ildə Paris buna görə təzminat ödəməyə başlayıb: 10 min nəfərə bədxassəli şişlərin müalicəsi üçün 800 milyon dollar ayrılıb. Burada da Yelisey Sarayı ayrı-seçkilik etməkdən çəkinməyib. Belə ki, təzminat alanlar əsasən fransızlar olublar, yalnız 63 aborigen sakin təzminat ala bilib ki, bu da Fransa "demokratiyasının, qardaşlığının və bərabərliyinin" gerçək göstəricisidir.

*Mübariz FEYİZLİ*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




## ŞƏNBƏ ÜÇÜN NƏZM









*Qılman İman*

Bu səmanın altı evim -
Üstü də eşik yeridi.
Ulduzları oyuncağım,
Gecəsi beşik yeridi.

Oyundu, oyun bu həyat,
Beşikdən al, məzara sat.
Biz gözətçi, can amanat -
Dünya da - keşik yeridi.

Bu andır qara yuxudan,
Ayılıb, doğmur axı dan.
Başımıza su axıdan,
Göylərin deşik yeridi.

***

Soruşsalar səvabımı,
Batıb günaha deyəcəm.
Yol yox, dünənə getməyə,
Nə də sabaha deyəcəm.

Düzlük görmədim düzündə,
Günlər azır gündüzündə.
Mən burdayam - yer üzündə,
Axtarma daha, deyəcəm.

Fatma nənənin qurşağı,
Sevindirmir ta uşağı.
Göy üzündən düş aşağı,
Gedib Allaha deyəcəm.

***

Ömrümüzdən gedən günlər,
Təndirin küt kündəsidir.
Əyrinin əyrisin yonan,
Yenə düzün rəndəsidir.

Gündüz günəş töksə də tər,
Qarşılayır axşamı şər.
Allah bilir eh, bu bəşər,
Kimdi, kimin bəndəsidir.

Dünya köhnə, günlər boyat,
Aldığını qaytarıb sat,
Ömür - cəbr, riyaziyyat,
Dünya bir az həndəsidir.

***

Qarı dünya, saçlarında,
O nədir, hörük görünür.
Hər telində adam-adam,
Asılmış bir yük görünür.

Saqi, ordan gətir süz mey,
Dinsin kaman, inləsin ney.
Başımızda çox iş şey eyy,
Ancaq elə tük görünür.

Hər baxışda min-min nizə,
Tuşlanıbdı ömrümüzə.
Adam var, nədənsə gözə,
Özündən böyük görünür.

***

Yaranan birdən yaranır,
Yaradan birdən başlayır.
Bildiyimiz bilməcənin,
Cavabı sirdən başlayır.

Hanı mənim, ruhum, hanı?
Uça, gəzə asimanı.
Göyüzünün nərdivanı,
Allaha yerdən başlayır.

Aranır, yollar aranır,
Cığırlar iz-iz daranır.
Səbir ümiddən yaranır -
Ümid səbirdən başlayır.

Nizələr dönüb ox olur,
Var olan bir gün yox olur,
Ölüm - “olum”dan doğulur,
Həyat - qəbirdən başlayır.

Yazdıqca ağ varaqları,
Sözlərim qaradan çıxır.
Sovulub, döyülən içim,
Hər payız uradan çıxır.

Nə qəribə sirdi bu sirr,
Qılınc da qınını kəsir;
Adamlar öldükcə bir-bir
Adamlıq sıradan çıxır.

Yolunu tapmır çözümün,
Gəl halına bax dözümün,
Şeir yazıram, sözümün -
İçindən Yaradan çıxır.

Bizə də söz yolu qoyub,
“Bir az da döz!” yolu qoyub,
Çoxları düz yolu qoyub,
Çıxanda aradan çıxır.

***

Uduzdum bu nərddə ömrü,
Cütdədiyim zər tərəfdən.
Xeyir şəhid oldu, oğlum,
Döyüşlərdə şər tərəfdən.

Bizim deyil nə ay, nə il,
Ömür nimdaş, dünya sail.
Hücuma keçib əzrail,
Top-tüfənglə hər tərəfdən.

Açılmır, nədən yolumuz?
Başsız bir bədən - yolumuz.
Göylərə gedən yolumuz
Bağlanıbdı Yer tərəfdən.

***

Ürəyimi kökləmişəm,
İnləyir neyin yerinə.
Göz yaşımı şərab kimi,
İçmişəm meyin yerinə.

Heç bilmirəm kiməm, nəyəm,
Çöl - ovlağım, dağlar dəyəm.
Hər gün yerə səcdədəyəm
Namazda göyün yerinə.

Çoxdan udub Ay ağını,
Çıraq yandırmır yağını.
Bədən var ki, ayağını -
İşlədir beyin yerinə.

Bir az uzağa gedirik,
Doğma qucağa gedirik.
Geyib torpağa gedirik
Kəfəni əyin yerinə.

Güc verər dizi yaradan,
Yol göstər, izi yaradan.
Bilmirəm, bizi yaradan,
Yaradıb nəyin yerinə...

***

Bu dünya yiyəsiz deyil,
Hər yerdə yüz adamı var.
Əyrini döyüb düzəldən,
Gör neçə düz adamı var.

Ahı fələkdən keçməyən,
Dəni küləkdən keçməyən,
Sözü ələkdən keçməyən,
Nə qədər söz adamı var.

Füzulidi söz Allahı,
Vicdan - qəlbin düz Allahı,
Adamların öz Allahı,
Allahın öz adamı var.

***

Səfərimiz uzun çəkir,
Mənzilə yolumuz çatmır.
Özümüzü təsdiq üçün,
İmzaya qolumuz çatmır.

Əcəl qəza kəndirimdi,
Ölüm dərdə endirimdi.
Satdığımız ömrü indi:
Almağa pulumuz çatmır.

Gördük hər dərddən betəri,
Qəza gətirən qədəri.
“Ol”duq ölməkdən ötəri,
Ölmüşük, “ol”umuz çatmır.

***

Gününə bax... günümüzü,
Göy əskiyə düyənlərin.
Əlləri çəkic kimidir,
Başımıza döyənlərin.

Fələkləri “yandırmır” ah,
Yer oxuna göy nişangah.
Dilində qalmışam, Allah,
Hər gün səni söyənlərin.

İtib nəsil, kök, soy dadı,
Sevinc yasda, qəm toydadı;
Gör, qaşığı nə boydadı,
Ömrümüzü yeyənlərin

# Əcəb tərcüməçi...

**Təkcə sözü, mətni deyil, fikri, sözün arxasındakı “aləmləri” də tərcümə edirik. İstər bu dilə, istərsə də o dildən...**



*Məqsəd Nur*

Azərbaycanda tərcüməçilərin sertifikatlaşdırılması məsələsi konkret məqsəd olmasa da, müzakirə, hətta təşviq edilə bilər. Təki bu yöndə olduqca aktiv müzakirələr aparıb fikir formalaşdırmağa çalışmaq cəhdləri yaxın keçmişdə taksi sürücülərini daha da mədəniləşdirmək cəhdlərinə bənzəməsin...

Dünya təcrübəsində tərcüməçilərin sertifikatlaşdırılmasına dair konkret mexanizmlər var. Sertifikat, əsasən, notariat və digər bu kimi mühüm sənəd və əqdlərin, hətta qanun və təlimatların tərcüməsi zamanı tələb oluna bilər. Bu təcrübənin tətbiqi zəruridir.

Sertifikat nədir? Keyfiyyət nişanına bənzər təsdiqləmə sənədi. Amma tərcüməçiyə verilən sertifikat heç də kondisionerə və ya soyuducuya verilən sertifikat kimi deyil. Burada insan məsuliyyətinin bir parçası var  və xidmət sahəsinin keyfiyyətini artıra biləcək kateqoriyaya da daxil edilə bilər. Əqdləri əcnəbi dillərdən (və digər dillərə) tərcümə edəcək insana sertifikat verilməsi heç də qəbahət deyil.

Bədii tərcümədə isə vəziyyət tamamən dəyişir. Burada söhbət təkcə insandan, peşədən deyil, həm də dildən və dillərə tərcümədən, əqli mülkiyyətdən gedir...

Bədii tərcümənin sərhədləri yoxdur. Necə ki, dillər sərhədsizdir, bədii tərcümə də eləcə - təkcə söz ehtiyatından, qrammatikadan ibarət deyil, onun özünəməxsus funksionallığı var. Təp-təzə mətn tərcümə etmək, təxminən, təp-təzə bədii mətn yaratmaq kimidir: bir vacib element istisna olmaqla. Tərcümə - başqasının mətnini başqasının dilindən öz dilinə çevirmək sənətkarlığıdır. Və hər üçünü sevərək, anlayaraq, bilərək etməkdir...

Əlbəttə, adlı-sanlı, şanlı-şöhrətli, dəyərli tərcüməçilərimizi sadalamağa başlasaq, başqa səmtə getməli olacağıq. Lakin sovet dövrü istisna olmaqla hələ də oturuşmuş tərcümə məktəbimizin formalaşa bilmədiyini də müşahidə etməkdəyik. Bədii tərcümə sənətində də institutlaşma, sənayeləşmə, müasirləşibən texnolojiləşmə təkcə yeniləşmə deyil, çağırışdır, tələbdir, hətta təhdidlərə sinə gərmək deməkdir.

Bu yerdə dərhal kitab sənayesi xatırlanır. Nəşriyyatlar nəinki yada düşür, hətta hədəfə götürülür. Axı onlar tərcümə və redaktələrlə məşğul olur, az qala hər gün yeni bir kitab istehsal edirlər. İş sənayeləşib, kəmiyyət var, keyfiyyət isə tələblərə tam cavab vermir.

Bəlkə, kurslar, ali məktəblərdə ixtisaslaşmış fakültələr (məhz bədii tərcümə üzrə!) çatışmır? Ödənilən qonorar çox aşağıdır? Məncə, digər, daha əhəmiyyətli suallar da ortaya çıxa bilər, lakin nə bu sualların, nə də veriləcək cavabların heç biri vəziyyəti dəyişmir. Bədii tərcümə işlərimiz heç də ürəkaçan deyil. Bəs nə edək?

Bu işdə şəxsi təcrübə və müşahidələrə üstünlük verməklə, açıq, qərəzsiz və qəzəbsiz müzakirələr aparmağın tərəfdarıyam. Nə etsək də, bu yazımda da zirək Sİ-dən (Süni İntellekt) imtina edə bilmərik...

Artıq neçə ildir, həm bədii, həm də qeyri-bədii tərcümələrdə, axtarış mətnlərinin cavablanmasında, məmnuniyyətlə Sİ-nin imkanlarından istifadə edirəm. Nəinki məmnuniyyətlə, hətta məcburi qaydada, “Google translate”-ə  mütləq töhfə verirəm. Hər dəfə bunu edir, uzun, səbrlə müşahidələr aparıram. Yəqin ki, mənim kimi digər “fədakar”lar sayəsində bu platformanın zənginləşdiyini, söz və terminologiya ehtiyatının artdığını müşahidə edirəm. Baxmayaraq ki, bir çox tərcüməçilər, ümumiyyətlə, redaktə və tərcümə işlərində Süni İntellektdən istifadə etməyi qəbahət sayırlar...

Budur, dünya dəyişir, biz də onun içində yaşayırıq. Dünya nəşriyyatları Sİ-nin daha avtomatlaşdırılmış tərcümə mexanizmlərinə keçib, tərcümələrin daha asan, daha tez, konveyer üsulu ilə həyata keçirilməsi üçün standartlaşmalar axtarırlar. Biz isə hələ də Sİ-dən xoflanırıq. Hara aparacaq, necə olacaq, burada da insanı əvəz edə biləcəkmi?

“Azərbaycan Mədəniyyəti - 2040” Konsepsiyasında ayrıca yer alan əlaqələndirilmiş fəaliyyət, elmi-texniki tərəqqi, infrastrukturun inkişafı, urbanik dəyişikliklərin dilə verəcəyi töhfələr kimi tezislər də məhz bu suallara cavab tapmaq üçün irəli sürülür.

Lakin biz bu suallar ətrafında düşünərkən belə, qlobal şəbəkə mədəniyyətimizlə dolub-daşır, bizim yaratdıqlarımızla zənginləşməyə çalışır. Bəlkə, elə üzərimizə düşən də budur? Yazıb-yaratmaq və daha çox tərcümə etmək? Zənginləşdirib töfhə vermək? Mətnlər yazıldıqca maşınların da öz sualları ortaya çıxacaq. Deməli, bu, təkcə mətnin özünə deyil, tərcüməsinə də aid ediləcək.

Müşahidələrim məni yanıltmırsa, getdikcə bədii tərcüməçilik bədii redaktorluğa dönür: çevirdiyin dili o qədər dərin bilməlisən ki, oralarda qol-qanad açıb uçmaq imkanların olsun. Bu, içəriyə, özünə dönüşdür. Biləcəridən o yana qaçmağa da hacət yoxdur...

Gərək, elə tərcümə edəsən, desinlər, ADAM əcəb tərcüməçidir...

# Azercell-dən xüsusi “Samsung” kampaniyası!




Lider mobil operator gənclərə özəl kampaniyaya start verib. Kampaniya çərçivəsində “Samsung Galaxy A17” və “Samsung Galaxy A56” smartfonlarından birini alan müştərilər “DigiMax 5GB” və ya “DigiMax 10GB” tariflərindən 3 ay müddətinə 50% endirimlə yararlana biləcəklər.

Qeyd edək ki, “DigiMax 5GB” tarifi müştərilərə 5GB internet, ölkədaxili zənglər üçün 300 dəqiqə, “WhatsApp” üzərindən yazışmalar üçün 1GB internet və 150 SMS təqdim edir. “DigiMax 10GB” tarifi isə 10GB internet, ölkədaxili zənglər üçün 600 dəqiqə, “WhatsApp” üçün 1GB internet, 300 SMS, eləcə də sosial media üçün 1GB internet təklif edir. Tarif paketləri avtomatik olaraq hər 28 gündən bir yenilənir.

Kampaniya 01.03.2026 tarixinədək Azercell-in rəsmi satış və xidmət mərkəzlərində keçərlidir.

Daha ətraflı məlumat üçün: https://www.azercell.com/az/personal/campaigns/special-offers/gencler-gunu-2026.html

# Ən yeni texnoloji cihazlar artıq “Bakcell Shop”da!

İnnovasiya lideri Bakcell müştərilər üçün yeni rəqəmsal satış platforması “Bakcell Shop”u istifadəyə verib. shop.bakcell.com vasitəsilə istifadəçilər mobil cihazlar və müxtəlif texnoloji məhsulları onlayn formada əldə edə biləcəklər.




“Bakcell Shop”da smartfonlar ilkin ödənişsiz, faizsiz və 18 ayadək hissəli ödəniş şərtləri ilə təqdim olunur. Smartfonu hissə-hissə ödənişlə əldə edən müştərilərə hər ay 20 GB-dək hədiyyə internet təqdim edilir.

“Bakcell Shop”da hissəli ödəniş prosesi cəmi 1 neçə klik və 1 dəqiqə ərzində tamamlanır. Proses tam rəqəmsal formatda həyata keçirilir və ilkin ödəniş tələb olunmur.

Sifariş edilən məhsullar ödənişsiz çatdırılma ilə birbaşa göstərilən ünvana göndərilir. Çatdırılma ölkənin bütün regionları üzrə təmin olunur.

**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

## Allah rəhmət eləsin!

Yeni Azərbaycan Partiyasının Qazax rayon təşkilatının sədri Anar Nəbiyev və Aparatın kollektivi iş yoldaşları

**RÖVŞƏN QİYAS OĞLU QAYAYEVİN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4683**
**Sifariş: 180**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova